www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 iyun 2015-ci il Çərşənbə axşamı № 135 (6163) Qiymәti 40 qəpik

**Xəbər**

## Bakıda iş adamının özünü öldürməsinin təfərrüatları

yazısı səh.3-də

**Gündəm**

### Qərb Azərbaycanın əsas silah satıcısını zəif yerindən sıxır



Rusiyaya qarşı sanksiyalar daha 6 ay uzadıldı, nəticə də var - Moskva ritorikanı yumşaldır, DÇ-2018-in büdcəsini ixtisara salır; Bakının Kreml üçün dəyəri artır...

yazısı səh.9-da

### AŞ PA-nın yay sessiyası başladı

yazısı səh.10-da

### İqbal Ağazadə Cəmil Həsənliyə sərt cavab hazırlayır

yazısı səh.4-də

### AXCP-də saxta profillər inqilabı...

yazısı səh.6-da

### Əlövsət Əliyev "generalın işində" adının hallandırılmasına aydınlıq gətirdi

yazısı səh.3-də

### İki qardaşın qətli ilə bağlı yeni detallar

yazısı səh.12-də

### Makkeynin xəbərdarlığı, Sobyaninin vədi: Qarabağı nə gözləyir?

yazısı səh.13-də

*Eyyub Hüseynov:*

### "Satışda olan qarpızların əksəriyyəti GMO məhsuludur"

yazısı səh.14-də

### Dünyanın ölüb-dirilən məşhurları...

yazısı səh.15-də

### Avropa Oyunlarında könüllü idmançını xilas etdi

yazısı səh.2-də

**Ramazan ayının 6-cı günü**

İftar 21.31 İmsaq (azan) 4.40 (QMİ)

6-cı günün duası: "İlahi, məni bu gün Sənin sözündən çıxıb, günah etməklə xar və zəlil etmə! Qəzəb şallaqları ilə məni vurma! Məni bu gün qəzəbinə səbəb olan günahlardan Öz minnət və qüdrətinlə uzaqlaşdır! Ey arzu edənlərin son Arzusu!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## "Oliqaxqeyt işi"ndə ikinci dalğa kimləri aparacaq?

# "BÖYÜK ƏLƏNMƏ" QAPIDA - ŞOK FAKTLAR

Cahangir Hacıyev Əfqanıstanda neftayırma zavodu alıbmış; həm Beynəlxalq Bank işi, həm də sabiq səfirlə bağlı qalmaqal daha geniş məmur spektrini əhatə edəcək; Ziya Məmmədovun şəriki prezidentliyə namizəd oldu, amma nazirin karyerası ciddi təhlükə altındadır...




yazısı səh.5-də

## Rüstəm İbrahimbəyovun "erməni ilə düşmən deyilik" sözləri sərt etirazlar doğurdu

**İsgəndər Həmidov:** "Ermənilər bizim düşmənimiz deyilsə, bəs Şəhidlər Xiyabanında uyuyanları kim qətlə yetirib?!"; **Mirzə Sakit:** "Əgər bu sözü hansısa bir YAP funksioneri desəydi, əks tərəf tumanını başına çəkərdi..."

yazısı səh.8-də



*İlham Əliyev:*

### "İslam həmrəyliyi möhkəmlənmәlidir..."

yazısı səh.2-də



*İlham Məhərrəmov:*

### "Prezident fotoaparatımı alıb köməkçisinə verdi və dedi ki, şəklimizi çək"

yazısı səh.11-də



*Tamilla Qulami:*

### "Cəmil Həsənli hər şeyi əlindən çıxandan sonra müxalifətçi olub"

yazısı səh.4-də

# Prezident müsəlman ölkələrinin səfirləri ilə görüşdü

## İlham Əliyev: "İslam həmrəyliyi möhkəmlənməli, müsəlman ölkələri bir-birinə daha böyük dəstək verməlidir"

**"Bizim Ramazan ayında görüşlərimiz ənənəvi xarakter daşıyır. Xahiş edirəm ki, mənim səmimi salamlarımı və xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Sizin təmsil etdiyiniz ölkələrlə Azərbaycanın sıx əlaqələri var, biz ikitərəfli formatda gözəl əməkdaşlıq edirik və bu əməkdaşlıq gün-gündən dərinləşir ".**



APA-nın məlumatına görə, bunu prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirləri ilə görüşündə deyib.

Dövlət başçısı bildirib ki, Azərbaycan müsəlman ölkələri ilə siyasi, iqtisadi və mədəni əlaqələrin daha da inkişaf etməsində maraqlıdır: "... Ümumiyyətlə, Azərbaycanın mövqeyi belədir ki, İslam həmrəyliyi daha da möhkəmlənməli, müsəlman ölkələri bir-birinə daha böyük səviyyədə dəstək verməlidir. Xüsusilə ölkələrimizi narahat edən məsələlərdə bu dəstəyə daha böyük ehtiyac var. Biz bu dəstəyi görürük. Xüsusən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Azərbaycanın mövqeyi müsəlman ölkələri tərəfindən dəstəklənir. BMT-də müsəlman ölkələrinin mütləq əksəriyyəti bizim mövqeyimizi dəstəkləyir, İslam Əməkdaşlıq Təşkilatı isə dəfələrlə münaqişə ilə bağlı reallığı, ədaləti, beynəlxalq hüququ və Azərbaycanın mövqeyini əks etdirən qətnamələr qəbul edib. Bu dəstəyə görə təşkilata üzv olan ölkələrə bir daha təşəkkürümü bildirmək istəyirəm".

**O qeyd edib ki, 2 ildən sonra Bakıda İslam Həmrəylik Oyunları keçiriləcək:** "Əminəm ki, 2 ildən sonra Bakıda keçiriləcək İslam Həmrəylik Oyunları bütün müsəlman ölkələrini bir-biri ilə daha da sıx birləşdirəcək".

Prezident həmçinin görüşdə deyib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması region üçün ən böyük təhlükə mənbəyidir.

**Prezident İlham Əliyev bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllini tapmalıdır:** "Ermənistan isə beynəlxalq hüquq normalarını açıq şəkildə pozur və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmir. Ancaq haqq-ədalət, o cümlədən tarixi ədalət və beynəlxalq hüququ bizim mövqeyimizi dəstəkləyir. Ədalət öz yerini tapacaq, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək".

# Arif Hacılı bu gün mətbuat konfransı keçirəcək

**Müsavat Partiyasının başqanı Arif Hacılı 23 iyun 2015-ci il tarixdə saat 13:00-da partiyanın mərkəzi qərargahında Brüssel səfəri, ölkədəki ictimai-siyasi vəziyyət, yaxınlaşan parlament seçkiləri və digər məsələlərlə bağlı mətbuat konfrans keçirəcək. KİV nümayəndələri dəvətlidir.**





# Avropa Oyunlarında könüllü idmançını xilas etdi

**Bakı-2015 Avropa Oyunlarında kamandan oxatma yarışları yekunlaşıb. «Trend»in məlumatına görə, iyunun 12-də kişi idmançılar fərdi yarışlarda medallar uğrunda mübarizəyə qoşulublar.**

Yekunda ispaniyalı Migel Alvarino Qarsiya qızıl medal, niderlandlı Syef van den Berq gümüş medal, belaruslu Anton Prilepov isə bürünc medal qazanıb.

İyunun 22-də Avropa Oyunlarında sambo yarışları keçirilib.

Musavat.com xəbər verir ki, 1 gün davam edən mübarizədə 8 dəst medalın sahibi müəyyənləşib.

Həm kişilər, həm qadınlar 4 çəki dərəcəsində qüvvəsini sınayıb. Azərbaycan millisi yarışa 8 samboçu ilə qatılıb.

52 kq çəki dərəcəsində ölkəmizi Nəzakət Xəlilova təmsil edib. İlk görüşü 1/4 finala təsadüf edən idmançımız Sodriana İonesku (Rumıniya) ilə üz-üzə gəlib. Həmin görüşü Xəlilova 4:1 hesabı ilə aktivinə yazıb. Xəlilova yarımfinalda litvalı Ruta Aksionova ilə qüvvəsini sınayıb. Bu görüşdə də üstün olan (8:0) həmyerlimiz finalda iştirak hüququ qazanıb.

Nəzakət çempionluq üçün Anna Xaritonova (Rusiya) ilə gücünü yoxlayıb. Bu dəfə samboçumuz uğurlu seriyasını davam etdirə bilməyib. Xaritonovaya 0:5 hesabı ilə məğlub olan Xəlilova gümüş medalla kifayətlənib.

57 kq-da ölkəmizi təmsil edən İslam Qasımovun ilk görüşü 1/4 finala təsadüf edib. Rumıniyalı Orlando Qruia ilə görüşən samboçumuz asanlıqla qələbə qazanıb- 9:0. İslam yarımfinalda Vaxtanqi Çidraşvili ilə mübarizə aparıb və döyüşünü üstün bitirib - 3:1.

Qadımov finalda rusiyalı Aymerqen Atkunovla gücünü yoxlayıb. Həlledici görüş həmyerlimiz üçün uğurlu alınmayıb (0:1) və o, gümüş medalla kifayətlənib.

60 kq çəki dərəcəsində iştirak edən idmançımız Şəhanə Hüseynova 1/4 finalda Yana Kostenko (Rusiya) ilə qarşılaşıb. Görüş rəqibin üstünlüyü ilə başa çatıb. Hüseynova 0:5 hesabı ilə uduzduğundan yarımfinala Kostenko vəsiqə qazanıb. Buna baxmayaraq, rus samboçu növbəti görüşünü də qalib kimi bitirdiyindən Hüseynova təsəlliverici döyüşə qatılıb.

O, bu mərhələdə Şorena Şaradze (Gürcüstan) ilə güləşib. Bu dəfə qələbə qazanan (4:2) samboçumuz bürünc medal uğrunda yarışıb. Amma Katarin Prakapenka (Belarus) ilə üz-üzə gələn təmsilçimiz məğlub olaraq, yarışı mükafatsız tərk edib.

Qeyd edək ki, bu, yığmamızın Avropa Oyunlarında qazandığı 37-ci mükafat olub.

Dünən Avropa Oyunlarında boks yarışlarının 1/4 final mərhələsinə start verilib. Apasport.az saytının məlumatına görə, 1/8 finalda irlandiyalı Keysi Maylsi məğlub edən Elvin Məmişzadə bu dəfə bolqarıstanlı Daniel Asenovla döyüşüb. Gənclər arasında Avropa çempionlarının dueli həmyerlimizin qələbəsi ilə yekunlaşıb. Məmişzadə rəqibini 2:1 (30:27; 30:27; 28:29) hesabı ilə məğlub edib. Boksçumuz yarımfinala vəsiqə qazanmaqla ən azı bürünc medalı özünə təmin edib.

***

Dünən dünyanın demək olar ki, bütün aparıcı idman nəşrləri Bakıda baş verən bu hadisəyə diqqət yönəldib. ANS PRESS-in məlumatına görə, polşalı idmançı Bartolomey Hes batut gimnastika növündə yarışarkən hərəkətlərini tənzimləyə bilməyib və hündürlükdən yerə düşüb. Bu zaman yaxınlıqda olan könüllü idmançını göydə tutaraq onun zədələnməsinin qarşısını alıb.

Dünyanın aparıcı nəşrləri xəbəri "Bakıda ürəklər ağıza gəldi", "Könüllü idmançını ölümdən xilas etdi" kimi başlıqlarla çap ediblər.

İdmançı könüllüyə təşəkkür edərək sonradan mübarizəsinə davam edib.

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



# Umud Mirzəyev Vilnüsdə səfərdə olub

**BAMF-in sədri Umud Mirzəyev Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Vilnüsdə keçirdiyi "Avropada əmək münasibətləri və iş zəmanətlərinin nizamlanmasında Sosial dialoqun əhəmiyyəti" mövzusunda beynəlxalq konfransda iştirak edib.**

İyun ayının 18-19-u tarixlərində Vilnüsdə baş tutmuş konfransda "Effektiv fəal əmək bazarı siyasəti-ölkələr üçün Aİ-nin çağırışı", "Avropa əmək bazarlarının təhlükəsizliyi və uyğunluğunun axtarılması" və s. kimi mövzular ətrafında müzakirələr aparılıb. Azərbaycandan beynəlxalq konfransa Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Aqil Dadaşov, Qadın Konsensus Mərkəzi ictimai birliyinin sədri Aynur Camal, Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqası İcraçı Komitəsinin rəhbəri Sahib Məmmədov, eyni zamanda BAMF sədri Umud Mirzəyev qatılıblar. Səfər çərçivəsində Azərbaycandan olan nümayəndə heyəti Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti ölkələrinin nümayəndələri ilə həm ayrı-ayrılıqda, həm də konfrans daxilində bir sıra səfər əhəmiyyətli görüşlər həyata keçiriblər.

Növbəti əhəmiyyətli görüş Umud Mirzəyev, Sahib Məmmədov və Azərbaycan, Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində illərlə çalışmış, əslən litvalı olan BAMF-in Litva təmsilçisi, fotojurnalist Riçard Lapaytisin iştirakı ilə Azərbaycanın Litvadakı səfirliyində baş tutub. Səfir Həsən Məmmədzadə ilə baş tutan görüşdə səfir diplomatik missiyanın həyata keçirdiyi və gördüyü işlər, Azərbaycanın vətəndaş cəmiyyəti qurumlarının media qurumları ilə əməkdaşlığından söz açıb.

bakcell

# Artıq «Bakcell» müştəriləri aldıqları mətn mesajlarını filtrdən keçirə bilirlər

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti reklamçılar tərəfindən öz müştərilərinə göndərilən kütləvi SMSlərin idarə edilməsinə imkan yaradan yeni platformanı müştərilərinin istifadəsinə buraxıb.**

**Bu yeni xidmət müştərilərin arzuolunmaz ticari reklamları almamalarına kömək edəcək. İndi müştərilər istədikləri mağazaların, şirkətlərin, bankların və ya müvafiq hesab etdikləri hər hansı digər hesabların adları yazılmış fərdi "ağ siyahı"larını yaradaraq, yalnız arzu etdikləri reklam mesajlarını qəbul edə biləcəklər.**

**"5595" qısa nömrəsinə "STOP" yazısını göndərməklə, müştərilər üçüncü tərəflərin göndərdiyi bütün reklam mesajlarının qəbulunu birdəfəlik dayandıracaqlar. Eyni zamanda, etibar etdikləri mənbələrdən SMSlər almaq üçün müştərilər müəyyən mağazanın, bankın və s. adını yenidən "5595" qısa nömrəsinə göndərməli olacaqlar.**

**«Bakcell» şirkətinin marketinq üzrə baş direktoru xanım Maria Toyçeva deyir: "Kütləvi SMSlərlə bağlı şikayətlərin əksəriyyəti reklamçıların göndərdikləri mesajlara aiddir. Müştərilər mağazalarda bazarlıq edərkən və ya bankların, digər müəssisələrin xidmətlərindən istifadə etdikləri zaman çox vaxt öz telefon nömrələrini təqdim edirlər. Müştərilərimizi məmnun etmək üçün biz onlara arzuolunmaz mətn mesajlarını filtrdən keçirməyə imkan yaradan yeni platformanı işə salmışıq. Yeni sistemin ən gözəl xüsusiyyətlərindən biri də odur ki, o, müştərilərə seçim imkanı yaradır və onlar hansı mesajları qəbul edib-etməməyi özləri seçirlər. Bizim təqdim etdiyimiz yeni xidmət «Bakcell» şirkətinin öz müştəriləri üçün ən yaxşı təcrübənin təmin edilməsi istiqamətində göstərdiyi səylərin daha bir sübutudur".**

**«Bakcell» öz müştərilərini yeni işə salınmış platformadan istifadə etməyə çağırır.**

# Müsavat Məclisinin sessiyası təyin olundu

**Dünən Müsavat Partiyası Divanının növbəti iclası keçirilib. Partiyadan verilən xəbərə görə, Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib. Müsavat Partiyasının başqanı Arif Hacılı Brüsseldə Avropa İttifaqının dəvəti ilə "Liberal demokratik perspektivdə Şərq Tərəfdaşlığının gələcəyi" mövzusunda keçirilən müzakirələrdə iştirakı, Avropa və postsovet məkanının dövlət xadimləri, siyasi partiya rəhbərləri ilə görüşləri barədə məlumat verib. Bu barədə ictimaiyyətə daha ətraflı məlumat vermək məqsədilə 23 iyun 2015-ci il tarixdə saat 13.00-da partiyanın mərkəzi qərargahında mətbuat konfransı keçirilməsi barədə qərar qəbul edilib.**

Divanda partiyanın nizamnaməsinə uyğun olaraq Müsavatçı Qadınlar Birliyinin yığıncağının keçirilməsi məqsədilə 15 nəfərdən ibarət Təşkilat Komitəsi yaradılıb.

Partiyanın Məclisinin növbəti yığıncağının 4 iyul 2015-ci ildə saat 11.00-da partiyanın mərkəzi qərargahında keçirilməsi qərara alınıb.

Yığıncaqda Bakıda keçirilən Avropa Oyunlarının gedişi, bu oyunlarla bağlı yaranan ictimai rəy, hakimiyyətin bu mövzuda apardığı siyasi təbliğat və digər məsələlər müzakirə edilib.

Divanda son parlament seçkilərindən sonra Türkiyə Cümhuriyyətində yaranan siyasi durum müzakirə olunub. Türkiyə siyasilərinin mövcud ictimai-siyasi vəziyyətdən türk xalqının mənafeyinə uyğun olaraq çıxacağına inam ifadə edilib.

Sonda cari məsələlərə baxılıb.

❑ E.SEYİDAĞA



# Bakıda intihara cəhdin qarşısı alındı

**Bakıda intihara cəhdin qarşısı alınıb. «Trend» Fövqəladə Hallar Nazirliyinin saytına istinadən məlumat verir ki, Bakı şəhəri, Nizami rayonunda 1 nəfər intihar etmək niyyətini nümayiş etdirib.**

Dərhal nazirliyin müvafiq xilasetmə qüvvələri hadisə yerinə cəlb olunub.

Xilasedicilər tərəfindən aparılmış psixoloji söhbət nəticəsində vətəndaş fikrindən daşındırılaraq, intihara cəhdin qarşısı alınıb.

YENİ MÜSAVAT
N 135 (6163) 23 iyun 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Bakıda iş adamının özünü öldürməsinin təfərrüatları

## Məzahir Cəfərovun intiharının səbəbləri haqda müxtəlif versiyalar dolaşır; Hacı İbrahim Nehrəmli deyib ki, qohumu özünü sarsıldığı üçün asıb

**İyunun 20-də Nəsimi rayonu, Həsən Əliyev ünvanındakı mənzilində iş adamı Məzahir Cəfərov asılmış vəziyyətdə aşkarlanıb. Hadisə yerinə gələn hüquq-mühafizə orqanlarının əməkdaşları müvafiq araşdırmalardan sonra ilkin olaraq belə qənaətə gəliblər ki, M.Cəfərov özünü asıb. Məzahir Cəfərov niyə intihar edib sualı hələlik cavabsızdır. Amma ortada M.Cəfərovun intiharı ilə bağlı bir çox fərziyyələr var. Tikinti sektorunda kifayət qədər tanınan M.Cəfərovun adı gündəmə "STS" və "Sahil D Compani" MMC-də baş verən fırıldaqlarla gəlmişdi.**

Bu ilin martında Baş Prokurorluğun Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə dəvət olunan M.Cəfərova külli miqdarda ziyan vurmaqla dələduzluq, vəzifə saxtakarlığı və digər maddələrlə ittiham elan olunmuşdu. M.Cəfərov Xətai rayonunda inşa edilən çoxmərtəbəli yaşayış binalarındakı satılmış və pulu ödənmiş mənzilləri saxta sənədlərlə təkrar müxtəlif şəxslərə satmaqda ittiham olunurdu. Etibardan sui-istifadə etmə və aldatma yolu ilə 4 milyon 458 min manat ələ keçirməkdə təqsirləndirilirdi. Bu barədə Baş Prokurorluğun yaydığı məlumatda qeyd olunurdu ki, istintaq müddətində vətəndaşlara vurulmuş maddi ziyanın 1 milyon 242 min manatı ödənib. Başlanmış cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdi. Lakin M.Cəfərov həbs olunmamışdı. Cinayət işi materiallarında Sahib İbrahimov, İlham Qasımov və Taleh Abdullayev adlı iş adamlarının adları vardı. "BizimYol" qəzeti baş verənlərlə bağlı Sahib İbrahimov və İlham Qasımovdan müsahibə almışdı. Həmin müsahibədən məlum olur ki, əslində bu şirkətlərin sahibləri Sahib İbrahimov, İlham Qasımov və Taleh Abdullayev olublar. Məzahir Cəfərovun adı isə yalnız icraçı direktor kimi keçib.

İşdə 48 mənzilin 96 nəfərə satılması ilə adi vətəndaşlara dəyən ziyandan söhbət gedirdi. Nə mənzilini, nə də verdiyi pulu geri ala bilməyənlərdən biri - Yeganə Ağayeva virtual.az saytında müsahibəsində deyib ki, pulunu geri istəyəndə Sahib onu İlqarın yanına, İlqar da Sahibin yanında göndərib. M.Cəfərovun ittiham olunması onun imzasının 1 mənzilin 2 və daha çox şəxsə satılmasını təsdiqləyən sənədlərdə olması ilə əlaqəli idi. Müvafiq ekspertizalar da imzaların məhz M.Cəfərova məxsus olmasını təsdiqləyirdi.

**"Sahil D" MTK-nın direktoru vəzifəsində çalışmış M.Cəfərov Hacı İbrahim Nehrəmlinin yaxın biznes ortağı olub, eyni zamanda İbrahimov qardaşlarından Sahib İbrahimovun tikinti işlərinə nəzarət edib. Hacı İbrahim Nehrəmli ANS-ə deyib ki. M.Cəfərov istintaqa cəlb olunandan sonra özünü yaxşı hiss etməyib:** "Məzahir Cəfərov baş verənlərlə bağlı çox fikir edirdi. Həssas insan idi və bu səbəbdən baş verənləri ürəyinə salırdı. Buna görə də sağalmaz xəstəliyə tutulmuşdu". Biznesmenin sözlərinə görə, qohumu xəstəliyə düçar olduğu üçün çox sarsılmışdı.



Hacı İbrahim Nehrəmli

"Beynində bəd xassəli şiş vardı. Bilirdi ki, xəstəliyi müalicəsizdir. Öləcəyini bilirdi və ona görə də tez bir zamanda problemlərini həll etmişdi. Onun şəriki ilə tikdirdiyi binalardakı mənzilləri bir neçə nəfərə satmışdılar. Artıq onlar problemi həll etmişdilər. Onun borcu yox idi", - deyə Hacı İbrahim Nehrəmli bildirib.

Onun sözlərinə görə, Məzahir Cəfərov beyin xərçəngi olduğunu biləndən sonra çox sarsılıbmış və özünə gələ bilmirmiş.

"Məzahir Cəfərov evli idi, 2 qızı yetim qaldı", - deyə Hacı İbrahim Nehrəmli vurğulayıb.

Qeyd edək ki, Məzahir Cəfərovun adı bir müddət əvvəl mətbuatda hallanmışdı. Bildirilirdi ki, tikinti dələduzluğuna, bir mənzilin bir neçə nəfərə satılmasına görə Məzahir Cəfərov həbs edilib, Sahib İbrahimov isə hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Bu hadisə İbrahimovun şəriki İlham Qasımovla apardığı məhkəmə prosesində uduzmasından sonra baş vermişdi. Ali Məhkəmənin qərarına əsasən, İbrahimovun Rövşən Əliyev küçəsində tikdiyi 24 mərtəbəli 4 bina İlham Qasımova verilmişdi.

Məlumat üçün bildirək ki, bu binaları "Galaxy Palace" şirkəti tikirdi. İstintaq zamanı 8 milyon yeyintinin olduğu aşkarlanmışdı. Özünü asan Məzahir Cəfərov Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun qaynı, Hacı İbrahim Nehrəmlinin yaxın qohumudur.

APA-nın məlumatına görə, 1964-cü il təvəllüdlü Məzahir Cəfərovun özünü asması faktı üzrə Nərimanov Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb. Yaxınları ilkin olaraq 1964-cü il təvəllüdlü Məzahir Cəfərovun intiharına ağır xəstəlikdən irəli gələn psixoloji durumun səbəb olduğunu göstəriblər.

❑ **E.HÜSEYNOV**

# Əlövsət Əliyev "generalın işində" adının hallandırılmasına aydınlıq gətirdi

## "Heç hakimə də bəlli deyil ki, niyə mənim barəmdə cinayət işi açılıb"

**"Bakı Ağır Cinayətlər Məhkəməsində Pənah Dadaşov, Namiq Camalov, Raqub İsbəndiyarov, Zeynəb Cəfərova, Şəfiqə Bağırova, Saçlı Həsənova, Pərvin Dadaşov, Rəvanə Dadaşova, Tahir Hüseynov, Günel Hüseynova, Adəm İsgəndərov və Ənnab İsgəndərovanın cinayət işi üzrə məhkəmə prosesi başlayıb. Bu barədə ilk olaraq virtualaz.org saytı məlumat yayıb. İttihama görə, Namiq Camalov Gülnarə Şəkinskayanın, eləcə də sonuncunun övladları - Nadiya, Həmidə, Məryəm və Cəvahir Şəkinskayaların dövlət sərhədini qanunsuz keçmələrindən ötrü rəsmi sənədlərin qanunsuz hazırlanması üçün Pənah Dadaşov, Zeynəb Cəfərova, Saçlı Həsənova, Əlövsət Əliyev və qeyriləri ilə özgənin külli miqdarda əmlakını talama barədə razılığa gələrək cinayət əlaqəsinə giriblər.**

İstintaq zamanı məlum olub ki, G.Şəkinskaya qeyd olunan cinayətlərin törədilməsində Əlövsət Əliyev, Namiq Camalov, Şəfiqə Bağırova və digərləri ilə yanaşı həm də doğma qardaşı Fərid Yusubla əlbir olub.

Təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 177.3.2 (oğurluq), 320.1 (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlanma, satma və ya saxta sənədlərdən istifadə etmə) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmə) maddələri ilə ittiham olunurlar.

İttihamda qeyd olunur ki, sözügedən cinayət işi üzrə təqsirləndirilən şəxslər - Gülnarə Şəkinskaya, onun qardaşı Fərid Yusub və Əlövsət Əliyev istintaqdan qaçıb gizləndiklərinə görə barələrində axtarış elan olunub.

G.Şəkinskaya DİN Baş Cinayət-Axtarış İdarəsinin rəisi, general Emin Şəkinskinin keçmiş həyat yoldaşı olub.

Cinayət işində adı hallanan hüquq müdafiəçisi Əlövsət Əliyev hazırda Almaniyada mühacirətdədir. Hüquq müdafiəçisi barəsində yayılan xəbərlərə sosial şəbəkə vasitəsilə aydınlıq gətirib. Ə.Əliyev bildirib ki, təqribən 2014-cü ilin yanvar ayında (ola bilsin daha əvvəl olub) G.Şəkinskaya AMM rəhbəri kimi ona müraciət edib və keçmiş əri tərəfindən himayəsində olan uşaqlarının zorla alınması təhlükəsi olduğunu bildirib, özünün iştirakı olmadan uşaqları ilə ərinin görüşməsi haqqında məhkəmə qərarını *(baxmayaraq ki, ərinin uşaqları ilə görüşməsinə heç bir maneçilik törədilməmiş və istədiyi gün və günün istənilən vaxtı uşaqları ilə görüşmüşdür)*, eyni zamanda məcburi olaraq ruhi əsəb xəstəlikləri dispanserinə aparılmasını bildirib və ordan verilmiş tibbi sənədləri ona təqdim edib.



Əlövsət Əliyev

Ə.Əliyevin yazdığına görə, G.Şəkinskaya müraciətində ölkəni tərk etməsə, ruhi əsəb xəstəlikləri dispanserinə salınmasına real təhlükənin mövcud olduğunu deyib. O, ölkədəki səfirliklərin və ya beynəlxalq təşkilatların hər hansı birindən və ya hər hansı bir ölkədən qaçqın statusu almaq üçün məsləhət istəyib. Hüquq müdafiəçisi isə qanunlar əsasında ona geniş məlumat verib: "Söhbət zamanı onun DİN-in Baş Cinayət Axtarış İdarəsinin rəisi Emin Şəkinskinin keçmiş arvadı olduğunu bildim. Bəlli oldu ki, onun oğlu olmadığına görə *(dörd qızı var)* Emin Şəkinski onu boşamışdır. Eminin birinci xanımından olan oğlu rəhmətə gedəndən, qızları isə bir az böyüyəndən sonra Emin tədricən qızları ilə yaxınlıq etməyə başlayıb. İndi isə qızları ondan almaq üçün onu ruhi əsəb xəstələri üçün dispanserə qoymaq istəyir. Onun mənə verdiyi məhkəmə qərarında Eminin uşaqlarla həftədə bir dəfə görüşməsi qət edilmişdir. Digər şəxslərə olduğu kimi mən Gülnarə xanıma da xaricdə sığınacaq ala bilməsinə əsas olan halları izah etdim".

**Ə.Əliyev həmçinin G.Şəkinskayanın mənzilində E.Şəkinskiyə məxsus pul vəsaitinin olmasına belə aydınlıq gətirib:** "Gülnarənin yaşadığı ev Bayraq meydanının tikintisi ilə əlaqədar söküldüyünə görə Bakı Şəhər İcra Hakimiyyətindən aldığı pulu olduğu kimi banklarının birində hesab açaraq köçürmüşdü. Mənə bildirmişdi ki, Yasamalda olan mənzilini təmir edir və həmin mənzilə köçəcək. Gülnarə xanım çox halal, vicdanlı, mükəmməl təhsil almış və dindar xanım idi. Boşanmış bir kişinin onun mənzilinə girməsi və orada pul saxlaması, sonradan isə həmin pulların Gülnarə xanım tərəfindən oğurlanması nağıldır".

**Ə.Əliyev yazıb ki, səhhətində yaranmış problemlə bağlı 2014-cü ilin mart ayında Almaniyaya həkim müayinəsindən keçmək üçün gedib:** "Qusardan keçərək Maxaçqala - Moskva-Berlin reysi ilə Almaniyaya uçdum. Müalicədə olduğum zaman Gülnarə xanım Şəkinskinin uşaqlarını xaricə aparması ilə bağlı müəyyən qrup insanların həbs olunmasını və mənim barəmdə də cinayət işinin başlandığını və hətta barəmdə axtarış elan edildiyini eşitdim".

**Ə.Əliyev Almaniyada olanda işi aparan müstəntiqlə danışıb. Sonuncu ona deyib ki, "Gülnarə xanım sizə güvənir, ona görə də siz o xanımı və onun qızlarının Bakıya qayıdışına kömək etməlisiniz. Bu halda işə xitam veriləcək". Hüquq müdafiəçisi bundan imtina etdiyini yazıb:** "Çünki Gülnarə xanım Bakıda qalsa yəqin ki, indi xəstəlikdən əziyyət çəkən şəxs kimi ruhi əsəb xəstəlikləri dispanserdə olardı".

**Ə.Əliyev hesab edir ki, barəsində başlanılmış cinayət işi E.Şəkinski ilə onun arasında keçmiş qaynı Fərd Yusubovun və baldızı Elnarə Yusubovanın ölkədən çıxmasına qoyduğu qanunsuz qadağaların dəyişdirilməsinə göstərdiyi hüquqi yardımla bağlıdır:** "Mənim barəmdə nəyə görə cinayət işinin olması faktı işinin istintaqını aparan müstəntiqə və barəmdə həbs-qətimkan tədbiri seçən hakimə də bəlli deyil".

❑ **Sevinc TELMANQIZI**



# İslahat, yoxsa xaos?

Azər RƏŞİDOĞLU

**Uzun müddətdir ki, sosial şəbəkələrdə etnik və dini qarşıdurma yaratmaq cəhdləri hiss edilməkdədir. Bu, bir fikir plüralizmi anlamına da gəlmir. Demokratik institutların dağıdıldığı bir zamanda etnik və yaxud dini qarşıdurmanın mümkünlüyü qaçılmaz olur.**

Azərbaycanın beynəlxalq qurumlarla yaşadığı problemlər ölkənin təcrid olunması ilə sonuclanır. Demokratiyanın yoxluğu isə radikalizmə yol açır.

Etnik qarşıdurmanı mümkün edən amillərdən biri də ölkədə baş verən sosial ədalətsizlik və korrupsiya hallarıdır. Bu kimi neqativ göstəricilər millətçiliyin və etnik separatizmin inkişafına rəvac verir. Problemlərin mövcudluğunda əsas etnosu günahkar bilmək, hakimiyyəti məhz dominant etnosun təmsilçiliyi kimi göstərmək milli zəmində qarşıdurma yaratmaq istəyən qrupların fəaliyyəti üçün tam şərait yaradır.

Qeyd edək ki, artıq uzun illərdir ki, ölkənin şimal bölgəsinin bəzi ərazilərində Azərbaycan qanunlarına boyun əyməkdən yayınmaq halları, rəsmi Bakıya meydan oxumaq cəhdləri və dövlət dilinə saygısız münasibət müşahidə edilməkdədir. Bu ərazilərdə yaşayan əhalinin əhəmiyyətli bir kəsiminin çörək pulu dalınca Rusiyaya yollanması qonşu ölkəni daha da cəlbedici göstərir. Bir sözlə, şimal bölgələrində müəyyən qüvvələr Moskvaya Bakıdan daha çox arxalanırlar. Bununla paralel, müəyyən təxribatçı qüvvələrin "Müstəqil Ləzgistan" yaratmaq cəhdləri vəziyyəti daha da qəlizləşdirir. Şimal bölgəsində sələfi əqidəli insanların gün-gündən güclənməsi isə gələcəkdə Azərbaycanda etnik münaqişənin dini müstəviyə transfer edə biləcəyini ehtimal etməyə əsas verir. Belə ki, ölkənin cənub bölgəsində də iki ölkənin təsiri aydın hiss olunur - İran və əlbəttə ki, əsas dolanışıq mənbəyi olan Rusiya. Bu bölgədə şiəliyin əsas amil olması isə gələcəkdə şimal və cənub bölgələrinin dini müstəvidə savaşının xəbərçisidir. Belə perspektiv Azərbaycanın ən azı iki hissəyə parçalanması cəhdindən xəbər verir.

Azərbaycanın parçalanması və zəiflədilməsi üçün bundan "gözəl" fürsət ola bilməz. Maraqlıdır ki, istər bəzi separatçı talış mərkəzləri, bəzi ləzgi mərkəzləri eyni dəyirmi masalarda iştirak edir və rəsmi Bakını şantaj edirlər. Baxmayaraq ki, onlar gələcəkdə bir-birilərinə qarşı savaşın iştirakçıları ola bilərlər.

Unutmaq lazım deyil ki, müşahidə olunan qanunsuzluqlardan ölkədə hamı əziyyət çəkir, o cümlədən də türklər. Mövcud problemləri etnik məsələ kimi qələmə vermək ən azı insafsızlıq və qərəzlilik olardı.

Bu arada Azərbaycanda "kürd kartı"nın işlənə biləcəyi ehtimalı heç də kiçik görünmür. Bu isə o deməkdir ki, PKK müharibəni Azərbaycan ərazisinə keçirə bilsə, ölkəmiz üçün daha ağır fəsadlar baş verə bilər. Başqa sözlə deyilsə, PKK Azərbaycanda yaşayan kürdlərin arasında separatçılıq tendensiyalarının güclənməsinə çalışa bilər. Onu da unutmaq olmaz ki, PKK-nın Azərbaycanda üz tutduğu əsas məkan işğal olunmuş ərazilərdir. İşğal olunmuş Azərbaycan ərazilərində PKK-nın hərbi təlim keçdiyi barədə məlumatlar yetərincədir. Qarabağ ərazisində PKK bazalarının yerləşdirilməsi barədə isə Türkiyə mətbuatı, kəşfiyyat orqanlarına istinadən, xeyli sayda məlumat yayıb. Bu baxımdan, Azərbaycanda yeni etnik problemlərin və münaqişələrin alovlandırılması tam real görünür. Nəzərə alsaq ki, ölkə daxilində də vətəndaş sülhündən danışmaq imkansızdır, baş verə biləcək etnik qarşıdurmaların dərinləşə biləcəyini ehtimal edə bilərik.

Azərbaycanı parçalamaq istəyən xarici qüvvələr kifayət qədərdir. Bunun qarşısını almağın yeganə yolu demokratik təsisatların bərpasından keçir. Əks təqdirdə, "qığılcımdan alov doğar" deyimi bu dəfə də keçərli ola bilər. Yalnız demokratik seçkilər etnik, dini və digər ayrı-seçkiliyə son qoya bilərdi. Bu gün Azərbaycanda gec partlayan minalar kifayət qədərdir. Bunun qarşısı bu gün alınmasa, fəsadlar dəhşətli olacaq. Lakin yuxarıda da vurğuladığımız kimi, bu məsələ zərgər dəqiqliyi tələb edir, "balta üsulu" bumeranq effekti verə bilər.

Daha bir əsas amil ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatı tənəzzülə doğru gedir. Proseslər elə bir nöqtədədir ki, perspektiv aydın deyil. Hər şey bir anın içində dəyişə bilər. Bəzi məsələlər bizim iradəmizdən də asılı deyil. Bölgədə cərəyan edən proseslər təsirsiz ötüşə bilməz. Ölkə seçim qarşısındadır - ya etnik və dini qarşıdurmanın yaratdığı xaos dəyişikliklərə səbəb olacaq, ya da Azərbaycan demokratik bir ölkəyə çevriləcək. "Ya islahatlar, ya xaos" seçimi yenə də aktualdır...

# İqbal Ağazadə Cəmil Həsənliyə sərt cavab verəcək

## "Adam bir söz işlədəndə, bir fikir bildirəndə heç olmasa bir az yaşına, başına baxar"

**Milli Şuranın sədri Cəmil Həsənlinin hədəfinə son bir-iki gündür ki, daha bir şəxs düşüb. C.Həsənli indi də Ümid Partiyasının sədri, deputat İqbal Ağazadəni hədəfə alıb. O, İqbal Ağazadəyə qarşı kəskin ittihamlarla dolu xüsusi böyük bir məqalə də həsr edib.**

Məqaləsini özünün facebook səhifəsində paylaşıb. Müttəfiqi olan "Azadlıq" qəzeti isə həmin məqaləni dərc edib. Qəzet indi də Cəmil Həsənlinin İqbal Ağazadəni ifşa etdiyini iddia edib. C.Həsənli məqaləsində İ.Ağazadənin payızda keçiriləcək parlament seçkilərində yenidən mandat əldə etmək üçün çalışdığını, bunun üçün hakimiyyətlə bazarlığa getməyə cəhd etdiyini iddia edib.

Ümid Partiyasının sədri İqbal Ağazadənin ittihamlara münasibətini öyrənmək üçün onunla əlaqə saxladıq. İ.Ağazadə bildirdi ki, geniş danışmaq niyyətində deyil, Cəmil Həsənliyə məqalə yazaraq cavab verəcək: "Müəllif yazısı ilə bəzi məsələləri diqqətinə çatdıracağam. Amma qəzetiniz vasitəsilə də demək istəyirəm ki, adam bir söz işlədəndə, bir fikir bildirəndə heç olmasa bir az yaşına, başına baxar. Mən çox istərdim ki, Azərbaycan professoru, elmlər doktoru, həm də siyasətçi olmaq istəyən, həm də prezidentliyə keçmiş namizəd olmuş şəxs belə olmasın. Belə olmaz. Hətta onun düşüncəsinə görə kimsə yanlış hərəkət etsə belə, bu qədər aqressiv yanaşma olmaz.



Yazımda cavab verəcəyim üçün çox şeyləri demirəm. Amma təəssüf ki, ətrafda olan, çevrələrində olan insanların da yanaşması bir qaragüruh yanaşmasıdır".

❑ E.SEYİDAĞA

# Tamilla Qulamidən Cəmil Həsənlinin statusuna cavab...

## Tamilla Qulami: "O, hər şeyi əlindən çıxandan sonra müxalifətçi olub"

**Milli Şuranın sədri Cəmil Həsənli son günlər çox aqressiv olub. Onun sosial şəbəkələrdə yazdığı statusların və nəzarətlərindəki qəzetə verdiyi sərt açıqlamaların ünvanı müstəqil mətbuat və digər müxalif şəxslər, partiyalardır. Yaşlı professorun hədəfində olanlar əsasən onun kimi düşünməyənlərdir. C.Həsənli onun kimi danışmayanları, düşünməyənləri, yazmayanları satqın, xəyanətkar adlandırır. Hamını ləkələməyə, aşağılamağa həvəslənir.**



Milli Şura sədri ölkədə və dünyada gedən prosesləri bir kənara qoyub gününü facebookda şər-böhtan dolu statuslar yazmağa həsr edir. Onun gündəmində hazırda hakimiyyəti tənqid yoxdur. Cəmil Həsənli özünü hazırda tamam başqa işlərə həsr edib.

**Son olaraq, Cəmil Həsənli facebook statusuna rəy yazan Ümid Partiyasının beynəlxalq əlaqələr şöbəsinin müdiri Tamilla Qulamiyə sosial şəbəkələrdə geniş yazı həsr edib. Yazıda iradlar üstünlük təşkil edir. Bu da bir qurumun sədrinin tənqidlərə olan dözümsüzlüyünün bariz nümunəsidir. T.Qulamı yazdığı rəydə təhqiredici ifadələr işlədən şəxslərə etirazını belə ifadə edib:** "Get-gedə çox gözəl anlaşılır ki, siyasət heç də pis bir elm deyil, onu bərbad edənlər sayəsində belə olur. Burada sözüm şərh yazanlaradır. Birilərini tanımadan, bilmədən haqqında təhqiredici sözlər yazırsız. Ayıb deyilmi? Deyirsiniz ki, Milli Məclisdə oturanlar satqınlardır. Bir zamanlar siz və sizin yanınızdakılar orda oturmamışdınızmı? Bu qədər ədalətsiz, bu qədər haqsız olmaq sizin kimi bir alimə də yaraşmadı, təəssüf. Ən azından sağlam tənqid etmək hər bir sağlam düşüncəli insana xas olan bir xüsusiyyətdir. Hakimiyyət dəyirmanına su tökməkdən başqa işə yaramır etdikləriniz. Nə qədər istəsəniz cümlələr qurun, təhqirlər edin, vurun. Əlinizə çamur alıb atırsız, amma atmamışdan öncə ətrafınıza baxın, görün ətrafınız necə çamur içindədir. Bu qədər insanın şəxsiyyətinə, mənliyinə toxunmaq olmaz. Sizin üçün uğur əgər fərdlərin qalibiyyətidirsə, buyurun, fərd olaraq da bu işlərlə məşğul olun, daha cəmiyyəti arxanızca sürükləməyin".

Ümidin xanım funksionerinin bu sözləri professorun qəzəbinə tuş gəlib. O, paylaşdığı statusda daha çox Ümidin sədri İqbal Ağazadənin bostanına daş atıb. Tamilla Qulamının yazdıqlarının əsassız olduğunu bildirib.

**Milli Şura sədrinin məlum statusu ilə bağlı T.Qulamının mövqeyini öyrəndik. O, "Yeni Müsavat"a açıqlamasında C.Həsənlinin bir rəyə böyük status həsr etməsinə təəccübləndiyini bildirdi:** "Cəmil Həsənlinin bir şərhə status yazmasına təəccüb etdim. Deyəsən, orada bəzi cəbhəçi gənclərin facebook aktivliyi Cəmil bəyə də öz təsirini göstərib və təəssüflə qeyd etməliyəm ki, Azərbaycanda siyasət artıq virtual məkandan kənara çıxa bilmir. Milli Məclisdə məlum bəyanata imza atıldıqdan sonra təhqiramiz ifadələr yazıldığını izləyirik. Sədrimiz İqbal Ağazadə kifayət qədər arqumentlər gətirib. Ən böyük riyakarlıq, sənin doğru dediklərinə inananlara yalan söyləməkdir. Cəmil Həsənlinin haqqımızda yazdığı statusun altındakı təhqir, söyüş dolu şərhləri görüb, bunların durdurulması yönündə şərh yazdım. Belələrini ətrafına yığmağa nə var ki? Status yazarkən Cəmil bəyin mənim şəhid qızı olmamı qabartmasının nə mənası vardı? Milli Məclisdə şəhid ailələri, qazilərlə bağlı fikirlərinimi önə çəkmək üçün idi? Şəhid ailələrinin, övladlarının, Vətən müharibəsində iştirak etmiş şəxslərin adından sui-istifadə edib, onlara inananların yanında xal qazanmaq doğru deyil. Şəhid qızı olmamı önə çəkməsi yoxsa bir şəhid qızı olaraq mənim fikirlərimi qısıtlamaq üçün idi? Dəstəkçiləri yazıb ki, şəhid qızının bir alimi təhqir etməyə haqqı yoxdur. Mən kimsəni təhqir etməmişəm. Fərqi yoxdur, şəhid qızısan, ya deyilsən. Belə çıxır ki, mən şəhid qızıyamsa, inanaraq getdiyim yolda, hansı ki, bu yolda nə oyun var, nə də riyakarlıq, bizim yolumuza qarşı sərt mövqe qoyanlar, cəmiyyətdə təhqiramiz fikirlər səsləndirib, haqqımızda yanlış məlumatlar ötürənlərə qarşı susmalıyam?! Şəhid övladına belə hörmət bəslənirsə, niyə hörmətli Cəmil Həsənli rəvac verir ki, ünvanımıza tərbiyəsiz sözlər yazılsın? Düşüncəsi, siyasi baxışları onlardan fərqli olanlar bu xalqın övladları deyilmi? Amma nə edəsən ki, insanların özlərini yarğılaması, başqalarını yarğılamaqdan daha çətindir".

**Tamilla Qulamı baş verənlərin kökündə bu ilin noyabrında keçiriləcək parlament seçkilərinin durduğunu söylədi:** "Bütün olayların səbəbi məhz builki seçkidir. Partiyadaşlarım, üzvü olduğum "125-lər" Siyasi Klubu səylə çalışır. Bəzi ağzıgöyçəklər isə ətraflarında olanlara nağıllar oxumaqla, yazdıqları statuslarına bəyənilər yığmaqla, haqqımızda mənfi rəy yaratmaq istəyirlər. Bu gün sənin dediklərini, biri 10 il öncədən də deyirdisə və deməkdə də davam edirsə, o zaman adamın arxasına keçəcəksən, önünə yox. Avropa Oyunları ilə bağlı olan bəyanata imza çəkən o İqbal Ağazadədir ki, bu günədək elə bir hadisə olmayıb, onu Milli Məclisdə səsləndirməsin, haqsızlığa uğrayan elə insan olmayıb ki, onun haqqını tələb etməsin. Əlindən hər şeyin çıxdıqdan sonra müxalifətçi olmağa nə var ki? Bilirsiniz, ənənəvi müxalifət beynəlxalq təşkilatlara o qədər güvənir ki, düşünür, həmin təşkilatlar gəlib sehrli çubuğunu yelləyəcək, cəmiyyətimizi, ölkəmizi bizim yerimizə demokratikləşdirəcək. Nə yazıq ki, onlar bizlərə siyasi damğalar vurmaqla, "hakimiyyətin adamı", "cib müxalifəti" deməklə əslində olduqları düşərgədəki yerlərini qorumaq üçün onlara inananlardan istifadə edərək, yalanlarla mənəvi terror edirlər. Bizləri yolumuzdan etmək, hədəfdən yayındırmaq, konflikt yaratmaqla gündəmdə qalmaq, növbəti 5 ildə də bugünkü parlamenti görmək niyyətindədirlər. Maraqlıdır ki, seçkiqabağı, görəsən, bu qədər vaxtı, zamanı hardan əldə edirlər? Bundan da sonra nə yazsalar, cavablandırmaq vaxt itkisidir. Bizim hədəfimiz, məqsədimiz bəllidir. Bu cür boş-bekar adamlara ayırmağa nə vaxtımız var, nə həvəsimiz".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 135 (6163) 23 iyun 2015

## “Oliqaxqeyt işi”ndə ikinci dalğa kimləri aparacaq?

**Avropa Oyunlarından sonra hakim komandada mümkün kadr dəyişikliyi haqda məlumatlar iqtidar daxilində cəbhələşmə meyllərini artırıb. Beynəlxalq Bankdan təxminən 6,5 milyard dollar kreditin mənimsənilməsinə görə başlanmış həbslər nisbətən səngiyən kimi qalmaqallı səfir Arif Məmmədov Binəqədidəki yanğın olayı səbəbindən iqtidar məmurlarını hədəfə alması ilə diqqəti yenidən iqtidar daxilinə yönəltdi.**



# “Böyük ələnmə” qapıda - şok faktlar

## Cahangir Hacıyev Əfqanıstanda neftayırma zavodu alıbmış; həm Beynəlxalq Bank işi, həm də sabiq səfirlə bağlı qalmaqal daha geniş məmur spektrini əhatə edəcək; Ziya Məmmədovun şəriki prezidentliyə namizəd oldu, amma nazirin karyerası ciddi təhlükə altındadır...

Son aylar baş verənləri bəziləri “ikinci Elşad Abdullayev” prosesinə bənzədirlər. Amma belə görünür ki, həm Beynəlxalq Bank işi, həm də sabiq səfirlə bağlı qalmaqal bir neçə oliqarxın həbsi ilə və ya nazirlərin parlamentdə mandat itkisi ilə yekunlaşmayacaq. Əksinə, bu dəfə daha geniş məmur spektrini əhatə edən “ələnmə” olacaq.

***

Beynəlxalq Bank işi üzrə istintaqdan məlumatlı olan mənbəmiz deyib ki, həbslərin ikinci dalğası məhz 6 milyard manatın mənimsənilməsində iştirakçı olan daha iri fiqurların üzə çıxarılmasına hesablanıb. Daha doğrusu, onların adları əvvəldən məlumdur. Amma böyük idman tədbiri ərəfəsi iqtidar daha ciddi narahatlıq yaratmamaq üçün müəyyən qədər gözləməli olub. Məlumata görə, Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyev yalnız öz şirkətlərinə və biznesinə məsul olanlar üçün krediti ürəklə verib. Qalan kreditorlara isə “gözünü yumub” kredit verməyib, əksinə, verdiyi hər bir dolların dövlətə aid olduğu barədə xəbərdarlıq edib, üstəlik, zamin duran bəzi yüksək vəzifəli məmurlardan zəmanət kağızı belə alıb. Onun hələ də həbs edilməməsinin sirri də özünü mümkün olan qədər sığorta etməsidir. Amma belə görünür ki, daha iri məmurlarla hesablaşmaq üçün iqtidar C.Hacıyevin həbsini rəsmiləşdirməlidir. Çünki Beynəlxalq Bankdan sorumlu olan C.Hacıyevi “istintaqla əməkdaşlıq edir” bəhanəsi ilə kənarda saxlayıb bu işə bu və ya digər şəkildə aidiyyəti olanları cəzalandırmaq məntiqli olmaz.

C.Hacıyevlə bağlı daha bir sensasion fakt isə istintaqa yeni məlum olub. İddiaya görə, C.Hacıyevin bir neçə milyon manat kreditin hara verilməsinin araşdırılması zamanı məlum olub ki, sabiq bankir dövlət rəhbərliyi ilə məsləhətləşmədən xarici iş adamının borcunun əvəzində Asiya ölkələrinin birində neftayırma zavodu alıb. Məlumdur ki, Azərbaycan dövləti adına xaricdən iri obyektlər alınanda bu, dövlət rəhbərliyi ilə mütləq razılaşdırılmalıdır. Amma iş təkcə zavodun alınması ilə bağlı dövlət səviyyəsində razılığın olmaması ilə bitmir. Mənbəmizin iddiasına görə, zavodun inkişaf etmiş Asiya ölkələrində deyil, terror qruplaşmalarının və tayfa davalarının hələ də at oynatdığı Əfqanıstanda alındığı üzə çıxıb. Bu isə Beynəlxalq Bankın növbəti milyonlarının faktiki batması deməkdir...

Qeyd edək ki, C.Hacıyevin Dubayda da “İntertekstill” fabriki və “İnterstell” poladəritmə zavodu olub. Bu olaylardan sonra məlum olub ki, yalnız tekstil fabriki fəaliyyət göstərib. İkinci zavod isə metallurgiya zavodu olub və həbslərə qədər tikintisi davam edirmiş. Hazırda yarımçıq zavod satışa çıxarılıb ki, Dubayda ən yaxşı halda 100 milyon dollara satılması ehtimalı var. Dubayda “ərinmiş” pulun miqdarı isə 318 milyon manatdan çoxdur...

***

Beynəlxalq Bank qalmaqalında adı keçən Hacı İbrahim Nehrəmlinin həbsi *(indi azadlıqdadır)* onun qardaşı, Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbəri Nazim İbrahimovu da hədəfə gətirib. Düzdür, qardaşlar arasında soyuqluq var və onun iyunun 20-də özünü asan qaynı Məzahir Sadıqovun Beynəlxalq Bank işində adı keçmirdi. Amma mərhumun adı da bir müddət əvvəl mətbuatda tikinti dələduzluğunda hallanmışdı. Bu iki hadisənin son vaxtlar biznesində də xeyli məhdudiyyətlərlə üzləşən N. İbrahimovun karyerasına son qoya biləcəyi ilə bağlı da xəbərlər yayılmaqdadır.

***

Karyerasına ciddi təhlükə olan digər məmur - nəqliyyat naziri Ziya Məmmədovla bağlı da xəbərlər intensivləşib. Nazirin qalmaqallı sabiq səfirlə ailəvi yaxınlığı barədə məlumatları Arif Məmmədov təkzib etməyib. Daha doğrusu, sabiq səfir mediaya son açıqlamasında hər şeydən danışsa da, mərhum atasının bir vaxtlar Z. Məmmədovun rəhbərlik etdiyi nazirlikdə yüksək vəzifə tutmasından danışmayıb.

Nazirin oğlunun amerikalı milyarder şəriki Donald Trumpun ilə şərikli tikdirdiyi “Trump Towers”in açılışının müəmmalı səbəbdən ləngiməsinin ardınca “Atletlər kəndində” baş vermiş qəza Məmmədovlarla bağlı məsələni daha da qəlizləşdirib.

Belə ki, nazirin qardaşı Loğman Məmmədovun oğlu, “Transqeyt” MMC-nin rəhbəri Rövşən Məmmədovun “Atletlər kəndi”ndəki qəza ilə bağlı ötən həftə istintaqa çağırıldığı xəbəri yayılıb. “Azadlıq” qəzetinin xəbərində deyilirdi ki, Rövşən Məmmədovla yanaşı Nəqliyyat Nazirliyinin bir neçə işçisi də qəza ilə bağlı dindirilib.

Xatırladaq ki, Avropa Oyunlarının açılış mərasimindən bir gün əvvəl - iyunun 11-də “Atletlər kəndi”nin nəqliyyat deposunda, “Bakubus” Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus avtobus hərəkət zolağından çıxaraq piyadalar üçün səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvlərinə bədən xəsarətləri yetirib.

Avtobus “Bakubus”a məxsus olsa da, “Transqeyt” şirkətinin də məsələyə aidiyyəti var. Bildirilir ki, məhz Ziya Məmmədovun qardaşı oğlunun rəhbərlik etdiyi şirkət bu avtobusları Azərbaycana gətirib. Qəzadan bir gün sonra həbs edilən sürücünün oğlu açıqlama vermişdi ki, hadisə avtobusda texniki nasazlıqdan baş verib. Mümkündür ki, Rövşən Məmmədov da bu səbəbdən istintaqa çağırılsın. Xəbərlə bağlı Nəqliyyat Nazirliyindən hər hansı şərh almaq mümkün olmayıb.

Daha bir maraqlı məqam Məmmədovların şəriki Donald Trumpun Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizəd olmasının rəsmiləşdirilməsidir. Ötən həftə Manhettendə yerləşən “Trump-Tower” göydələnində mətbuat konfransı keçirən milyarder bu qərarını rəsmən bəyan edib. 69 yaşlı milyarder “Mən Allahın bu günə qədər yaratdığı ən əzəmətli prezident olacam” deyə, bildirib. “The Washington Post”un məlumatına görə, Trump seçki kampaniyasında uğurlu biznesmen mövqeyindən çıxış edəcək. Qeyd edək ki, ABŞ-da prezident seçkiləri 2016-cı ilin 8 noyabr tarixində keçiriləcək.

Trumpun namizədliyinin Məmmədovlara nə kimi üstünlük gətirəcəyini isə zaman göstərəcək...

❑ **“Yeni Müsavat”**

# Siyasət deyilmi?..



**Hüseynbala SƏLİMOV**

**Bəli, yay da gəldi, siyasətdən yazmaq bir az da çətinləşdi. Hərçənd ki, elə o biri fəsillərdə də bu mövzuda yazmaq asan deyil... Amma ağlıma heç bilirsiniz, nə gəlir? Deyirəm ki, məndən siyasi yazı uman dost, qarşıdan parlament seçkisinin gəlməsi siyasət deyilmi?..**

Bu seçkidə bütün bülletenlərin artıq indidən yalnız hakimiyyətə “hə” deməsi siyasət deyilmi?..

Bütün il boyu yağan ittiham yağışları və heç bir vaxt sönməyən hakimiyyət ehtirası elə siyasət deyilmi?..

Hakimiyyətin 22 il hakimiyyətdə olması, müxalifətin isə 22 il yerində sayması siyasət deyilmi?..

Birinin sürətlə varlanması, o birisinin isə, əksinə sürətlə kasıblaması elə siyasət deyilmi? Birinin daim yülsəkliklərə qalxması, o birisininsə daim aşağı baxması siyasət deyilmi?..

Qərəz, siyasət hər şeydə var, hər yerdə var. Bu ölkədə bəlkə də Günəşin doğması, Ayın batması da böyük və uğurlu siyasi strategiyanın nəticəsi kimi baş verir. Məgər siz bununla razı deyilsinizmi? Razı deyilsinizsə, onda niyə bu ölkəni tərk etmirsiniz?..

Nə isə. Lirik tonda müraciətimizi bitirək. Amma bir az əvvəldə yazdıqlarımın üstündə israr etməyə hazıram...

Düzdür, Günəşdən və Aydan bəhs etməyim bir qədər yerinə düşmədi. Amma uğurlu neft və qaz strategiyası olan bir yerdə Günəş və Ay nəyə lazım?..

Biz burada elə bir tonqal qalayarıq ki, lap bütün Günəş sistemini isidər! Onsuz da Günəşin və Ayın “ikili standart”lara yol verməsi bizə çoxdan məlumdur - bir yeri daha çox isidirlər, başqa yeri isə az...

Özü də elə bilirlər ki, bizim bundan xəbərimiz yoxdur, bunun fərqində deyilik. Gəl, Günəşin ulduzların toplantısında, Ayın isə planetlərin yığıncağında bizim haqqımızda nələr dedikləri bizə çoxdan məlumdur...

Qərəz, bütün bunlar siyasət deyilmi? Hətta Qalaktikada sabitlik yoxdur, gündə bir ulduz partlayır. Amma bizdə elə sabitlik və sakitlik var ki, adamın darıxmaqdan az qalır ki, ürəyi partlasın... Amma min şükür ki, bizdə partlayıb eləyən yoxdur - ürəyi partlayanları isə nəzərə almırıq, çünki bu, hesabdan deyil...

Bəli, başqa yerlərdə sadəcə, siyasət var, adi bir siyasət! Bizdə isə yalnız uğurlu siyasət mövcuddur və kim istəyirsə, həmin uğurlu siyasətə qoşula bilər, digər siyasətləri bizlər adətən tanımarıq...

Bizdə hər şey insana və onun rifahına xidmət edir. Biz insanlara problem yaratmarıq, onları, məsələn, əziyyətə salıb kimisə seçməyə vadar etmərik və özümüz onların əvəzinə seçərik... Məgər bu, siyasət deyilmi?..

Deyirlər ki, guya biz insanlara toplaşmağa, öz sözünü deməyə imkan vermirik. Ağ yalandır! Bizdə hər bir adam sərbəst və azad şəkildə çıxıb Putin bir tərəfə, Obama haqqında istədiyini deyə bilər... Bundan böyük azadlıqmı ola bilər? Heç Rusiyada insanlar Putin haqqında istədiklərini deyə bilirlərmi?

Mən hələ Obamanı demirəm... Məgər bu, siyasət deyilmi?..

Qərəz, nə olmasa da, bu ölkədə siyasət istədiyin qədərdir, çünki çörəyi siyasətdən çıxanların sayı-hesabı bilinməz, zira ki, bu ölkədə siyasət ən gəlirli biznesdir... Məgər bu, siyasət deyilmi?...

Bizdə oğullar var ki, Bill Qeytsi suya susuz aparıb, susuz gətirər!.. Elə bil camaatın pulunu sayıblar! Deyirlər ki, guya ki, Bill Qeyts dünyanın ən varlı və imkanlı adamıdır!.. Bilmirsən, zarafat edirlər, yoxsa elə həqiqətən də belə düşünürlər?..

Görünür, elə Bill Qeytsin də siyasi biznesdən xəbəri yoxdur. Əgər olsaydı....

Bəli, əgər olsaydı, belə zarafatlar etməzdi...

Qərəz, bütün bunlar siyasət deyilmi? O başqa məsələdir ki, biz siyasət dünyasının balinalarını buraxıb gedib yapışırıq onun kilkələrindən... Amma bu da bir siyasətdir. Bəs necə? Elə bilirsiniz bütün bunlar elə-belə olur?..

Qardaş, bu siyasət ki, var, həm qəliz məsələdir, həm də vacib. Baş qoşdunsa, gərək yaza-yaya, payıza-qışa baxmayasan... Öz işində olasan...

Bir də görürsən deyirlər ki, yazmağa mövzu yoxdur. Canım, məgər elə bunun özü mövzu deyilmi? Elə bundan yaz...

İndi siz mənə deyin görüm, bu siyasətdi, ya siyasət deyil? Buna siyasət demək olar, yoxsa olmaz?..

Əslində hər şey siyasətdi. O başqa məsələdir ki, bunu hamı görür, amma çox az adam bu haqda ucadan danışır. Bax, elə siyasət də budur...

**Ümid Partiyası İcra Aparatının rəhbəri, politoloq Taleh Əliyev ölkədə və dünyada baş verən son hadisələri partiyanın mətbuat xidmətinə şərh edib.**

# "Ümid Partiyası "baraji" aşdı"

## Taleh Əliyev: "Opponentlərimiz çox narahatdırlar ki, Ümid növbəti dəfə parlamentdə yeganə müxalifət partiyası olaraq təmsil olunsun və Qərb də bunu tanısın"

***- Taleh bəy, bir qrup millət vəkilinin imzaladığı məlum bəyanata İqbal Ağazadənin də imza atması həmin sənədin özündən daha çox müzakirəyə səbəb oldu. Sizcə, bunun səbəbi nədir?***

- Tamamilə doğru qeyd edirsiniz ki, bu gün o bəyanatın özündən daha çox məhz cənab İqbal Ağazadənin bu sənədə imza atması müzakirə predmetinə çevrilib. Bu da başa düşüləndir, siyasi rəqiblərimiz bəyanatı fərqli rakursdan şərh edərək bunu İqbal Ağazadənin və Ümid Partiyasının əleyhinə istifadə etməyə cəhd göstərirlər. Amma bəyanatın adından da göründüyü kimi, bu sənəd I Avropa Oyunlarının siyasi alətə və təzyiq metoduna çevrilməsinə bir etirazdır. İqbal bəy də bu bəyanata məhz bu səbəbdən imza atıb. O ki qaldı siyasi məhbuslar məsələsinə çox istərdim ki, tərəfsiz və qərəzsiz oxucularımız iki mühüm məqama diqqət yetirsinlər. Birinci bəyanatın layhəsini YAP-çı millət vəkilləri hazırlayıb və bu formada imzalanması onlar üçün daha vacib bir məsələ olub nəin ki, İqbal Ağazadə üçün. Hesab edirəm ki, İqbal bəy bu bəyanata imza atmaqla həm özünü, həm də partiyamızı daha az və həm də daha çox qərəzli olan suallarla üz-üzə qoyub. Əgər hansısa bir bəndə etiraz əlaməti olaraq bu bəyanata imza atılmasaydı o vaxt hakimiyyətin qara piarı İqbal Ağazadənin və Ümid Partiyasının əleyhinə yönələcəkdi. İkinci məqam isə bəyanatın yayıldığı günün səhəri İqbal bəyin mövqe yazısı idi. Orda da çox geniş və tutarlı arqumentlərlə izah olunurdu ki, belə bir bəyanata imza atmaq zərurəti nədən yarandı. Mən istərdim ki, fürsətdən istifadə edib bir məqama da toxunum. İndi bizi qınayanlar elə hesab edirlər ki, həm də bu barədə öz statuslarında da yazırlar ki, bu sənədə imza atmaqla Ümid Partiyası növbəti parlament seçkilərində "baraj" aşdı. Bax, onları əsas narahat edən bu məqamdır. Ona görə də bu məsələni var gücləri ilə gündəmdə saxlamağa çalışırlar. Opponentlərimiz çox narahatdırlar ki, Ümid Partiyası növbəti dəfə parlamentdə yeganə müxalifət partiyası olaraq təmsil olunsun və qərbdə bunu tanısın.

***- Taleh bəy, I Avropa Oyunları haqqında düşüncələriniz nədir?***

- Mən ilk gündən I Avropa Oyunlarının ölkəmizdə keçirilməsini müsbət bir hadisə kimi qəbul etmişəm. Hesab edirəm ki, I Avropa Oyunlarının ölkəmizdə keçrilməsi Azərbaycanın Avropaya inteqrasiyası istiqamətində çox mühüm bir hadisədir. Eyni zamanda Avropa ailəsinin üzvülüyünə canatan Azərbaycanın ortaq tarix yaratması baxımından unikal bir fürsətdir. Azərbaycan sərhədlərindən xaricdə heç kim bu möhtəşəm tədbiri YAP-ın uğuru hesab etmir. Xususilə də Avropa telekanalları bu oyunları Azərbaycan idmanının uğuru kimi təqdim edirlər. Sadə vətəndaşlarımız da milli komandamızın bu yarışlarda göstərdikləri inanılmaz qələbələri sayəsində I Avropa Oyunlarını böyük coşğu və sevgi ilə izləyirlər. Həqiqətən də idmançılarımız bizə bu zövqü yaşadırlar. Eşq olsun idmanşılarımıza!



***- Türkiyədə seçkilər başa çatsa da yeni hökumət qurulmadığına görə bu ölkədə baş verənlər Azərbaycan oxucuları üçündə maraqlıdır. Bu barədə nə deyə bilərsiz?***

- Dostlarla 7 iyun seçkilərini dəyərləndirərkən dedim ki, bu seçki Türkiyə tarixinə ikinci Çanaqqala zəfəri kimi düşəcək. Həqiqətən də Çanaqqal zəfərinin 100 iliyində türk milləti sübut etdi ki, o, öz tarixinin yaradıcısıdır. Dünyada və regonda geosiyasi vəziyyətin pisləşdiyi bir vaxtda Türkiyə üçün ən ideal vəziyyət deyərdim ki, hazırki mənzərədir. AKP tək iqdidar olsaydı Türkiyə Putin Rusiyasına dönəcəkdi. Türkiyə Rəcəb Tayib Ərdoğanın istək və arzularına uyğun yenidən şəkillənəcəkdi. Amma indi hər kəs fərqindədir ki, Türkiyədə hesablaşılacaq tək bir qüvvə var, o da xalqdır! Növbəti mərhələdə isə Türkiyə üçün ən doğru seçim AKP ilə birlikdə qurulacaq bir koalisiyon hökumətdir. Fərqi yoxdur, MHP-AKP, yoxsa CHP-AKP. Düzdür, artıq MHP-AKP koalsiyasından daha çox danışılır və çox ehtimal ki, bu koalisiyada formalaşacaq. Mən niyə AKP ilə birlikdə qurulacaq bir koalisiyan hökumət deyirəm? Əgər digər partiyalar koalisiyon hökumət qurarlarsa o zaman Türkiyədə saray daxili çəkişmə ölkəni tamamilə zəiflədər. AKP ilə birlikdə qurulacaq bir koalisiyon hökumət isə ölkədə demokratikləşməni və sabitliyi qarantiyalamış olacaq.

***- Təqribən iki aydan sonra Azərbaycanda növbəti parlament seçkilərinə start veriləcək.Seçkilərdən gözləntiləriniz nədir?***

- Ümid Partiyası xeyli zamandır ki, parlament seçkilərinə hazırlaşır. Artıq seçki hazırlığının iki mərhələsi arxada qalıb. Seçki öncəki hazırlığın sonucu mərhələsindəyik. İnanıram ki, bu mərhələni də uğurla yekunlaşdıracağıq. Bu gün ölkədə heç bir partiya Ümid Partiyası qədər seçki prosesi hazırlığı içində deyil. İqbal bəyin də qeyd etdiyi kimi biz rəsmi seçki kompaniyasına seçki porsudurlarının yerinə yetirilməsi mərhələsi kimi baxırıq. Ona görə də hələ bu ilin əvvəlindən mətbuatda da partiya namizədlərimizin hansı dairələrdən namizəd olacağı haqqında məlumatlar gedirdi.

---

**Bu gün cəmiyyətimizdə qəribə bir xəstəlik yaranıb. Bir günlük, bir həftəlik, bir aylıq və s. qəhrəman adı qazanmaq... Etməyin deyəcəyəm amma müşahidələrdən görürəm ki, bütün bunlar fərdi maraqlar üzərində köklənib. Günlərdir izləyirəm. Bu barədə nə danışmaq, nə də yazmaq istəyirdim. Çünki deyəcəkdilər, sədridir, müdafiə etməlidir də. Halbuki burda müdafiə olunası heç nə yoxdur. Milli Məclisin məlum bəyanatına qol çəkdiyi üçün sosial şəbəkələrdə fürsəti fövtə verməyənlər Azərbaycan Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadəyə, onun ətrafındakı insanlara olar-olmaz, təhqiramiz sözlər ünvanlamaqla öz kimliklərini nümayiş etdirirlər.**

**Tamilla MƏMMƏDOVA (QULAMİ)**
**beynəlxalq əlaqələr şöbəsinin müdiri**



# Bu gün Azərbaycan siyasətində Ümid həqiqəti var

## Hədəfimizdən yayınmayacağıq, ardıcıl, stabil, inamlı, ümidli, təhqirlərdən uzaq, etik davranış qaydalarına riayət etməklə öz mübarizəmizə davam edəcəyik!

Burada kiçik bir haşiyə çıxıb seçkidən yazacağam. Çünki bütün olayların, çamur atmaların, firqə maraqlarının, mənçilliyin üzə çıxmasının səbəbi məhz bu ilin seçki ili olmasıdır. Üstünə basa-basa qeyd edərək deyirəm ki, partiyadaşlarım, üzvü olduğum "125-lər" Siyasi Klubu səylə çalışır, dairəylə, insanlarla işləyir ki, haqq etdiklərinə çatsın. Bəzi ağzıgöyçəklər isə ətraflarında olanlara nağıllar oxumaqla, yazdıqları statuslarına bəyənilər yığmaqla, eqolarını doyurmaqla rəy yaratmaq istəyir ki, biz səsi xalqdan yox, iqtidardan istəyirik. Hətta bilirlər ki, hər birimiz artıq dairəmizi müəyyənləşdirərək, insanlar arasında seçki mədəniyyətinin formalaşması üçün bütün əməklərimizi sərf edirik... Gözdən salınmış seçkinin tamamilə sıradan çıxarılıb məhv edilməsinin qarşısını almağa çalışırıq. Hakimiyyətin əsas məqsədi xalqı seçki prosesindən kənarlaşdırmaqdır. Sizlər isə bilərəkdən və ya bilməyərək bütün davranışlarınızla bu prosesə dəstək verirsiniz.

Bəyanata qol çəkdikdən sonra fürsət güdənlər canfəşanlıq göstərərək qeyri-etik statuslar, şərhlər yazıb, hər tərəfdən Ümid Partiyasını, "125-lər" Siyasi Klubunu gözdən salmağa çalışmaqla məşğuldu. Bütün bunları izlədikcə düşünürəm ki, gerçəkdən də insanlar nə qədər bəkardır.

Avropa Oyunları ilə bağlı olan bəyanata imza çəkən o İqbal Ağazadədir ki, bu günədək elə bir hadisə olmayıb, onu Milli Məclisdə səsləndirməsin. Haqsızlığa uğrayan elə insan olmayıb ki, onun haqqını tələb etməsin.

Bu gün İqbal Ağazadə Azərbaycan siyasətində, siyasi mübarizəsində hər kəsdən fərqli olaraq, bütün məsələlərə yanaşmada heç vaxt münasibətini şəxsiləşdirməyib, yazılarında, çıxışlarında heç vaxt söyüşlərə, təhqirlərə yer verməyib, siyasətə mədəni siyasi danışıq tərzini gətirib. Bütün tənqidlərini hər zaman siyasi xətt üzərindən aparıb. Dövlətin, millətin maraqlarını hər zaman şəxsi maraqlarından üstün tutub.

Nə yazıq ki, ənənəvi müxalifət dəstəsi bizlərə siyasi damğalar vurmaqla, "hakimiyyətin adamı", "cib müxalifəti" deməklə əslində olduqları düşərgədəki yerlərini qorumaq üçün onlara inananlardan istifadə edərək yalanlara mənəvi terror əsdirib, bizləri yolumuzdan etmək, hədəfdən yayındırmaq, konflikt yaratmaqla gündəmdə qalmaq, növbəti 5 ildə də bu günkü parlamenti görmək niyyətindədirlər.

Səbəbi çox bəsitdir. Axı heç bir hakimiyyət bazası olmayan bir partiya olaraq mərkəzdəyik. Belə də davam etməyəcəyi təminatını getdikcə zəifləyən digər partiyalara kimsə vermir. Bu gün onların istəyi, məqsədi birliyimizi dağıtmaq, partiyamızın güclü müxalif təşkilat olmasına maksimum şəkildə imkan verməmək, sədri, ətrafındakılarla bağlı cəmiyyətə yalan, yanlış, təhqiramiz məlumatlar ötürməkdir. Bu gün Azərbaycan siyasətində "Ümid" həqiqəti var. Kimsə danmağa qalxmasın bu həqiqəti.

Təəssüflər olsun ki, demokratik cəmiyyət olmadığımız üçün də, hələ bir çoxumuz sağlam düşünə bilmədiyimizə görə partiyaların təsnifatını müəyyən edə bilmirik. Bütün bunların sayəsində cəmiyyətdə fikirlər haçalanır, getdikcə savaşan müxalifətə inam azalır, insanlar kimə inanacaqlarını belə şaşırırlar.

Bu günün reallığı budur ki, nə olur-olsun sənin yanında olmayanları, sənin kimi düşünməyənləri yamanlamaq, söymək üçün mövzu bolluğu olsun.

Jeffersonun gözəl bir sözü var: "Mən sənin düşüncələrini qəbul etməyə bilərəm, amma sənin haqların üçün ölməyə hazıram".

Yuxarıda da qeyd etdiyim kimi, hədəfimizdən yayınmayacağıq, ardıcıl, stabil, inamlı, ümidli, təhqirlərdən uzaq, etik davranış qaydalarına riayət etməklə öz mübarizəmizə davam edəcəyik!

---

**Başsağlığı**

**Ümid Partiyası Şəki rayon şöbəsi sədrinin seçki və təbliğat məsələləri üzrə müavini, Əfqanıstan veteranı, Prezident təqaüdçüsü Əhmədov Nemət Əhməd oğlu vəfat edib.**

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə və partiyanın Rəyasət Heyəti Nemət bəyin vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir.**

**Allah rəhmət eləsin!**

***

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə və partiyanın Rəyasət Heyəti Arzu, Aqil və Pərviz Səmədbəyli qardaşlarına anaları Nabat xanımın vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin!**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 135 (6163) 23 iyun 2015



# Sevinməyin qiyməti

Zamin HACI
zaminhaci@gmail.com

“Həmin dəqiqə hamı Akaki Akakiyeviçin şinelinə tamaşa eləmək üçün qapıçının otağına yüyürdü. Onu təbrik eləməyə başladılar. O, öncə yalnız gülümsünürdü, axırda isə hətta utanmağa başladı”

*(Nikolay Qoqol, “Şinel”)*

Dünən Avropa Oyunlarına sevinən hörmətli zəhmətkeşlərimizdən bəhs elədik, bugünkü mövzumuz isə sevinməyənlər haqdadır. Neyləyə bilərik, hələ də belə mağara təfəkkürlü insanlar vardır, onlar Marina Durudan-ın məşqçi Nataşa Korolyovanın rəhbərliyi altında bədii gimnastika üzrə gümüş medal almasına sevinmirlər. Halbuki o qız Azərbaycan milli komandasını təmsil edir, bizim dövlət büdcəsindən alacağı 50 min manatı da aparıb Moldovada kəndlərində sərf edəcəkdir. Görün nə boyda humanitar aksiyadır! Xalqımızın xəbəri yoxdur, ölkəmiz dünyada ən humanitar ərazilərdən birinə dönmüşdür. Hər kəsə yardım edirik, özümüz acından ölsək də olar.

O cümlədən biz ölkədən normal şəkildə qaça bilməyib İsveçrə səfirliyində sığınacaq alan jurnalist Emin Hüseynovu vətəndaşlıqdan qovduq, əvəzində isə efiopiyalı Hayle Mengistu Mariam yoldaşı vətəndaşlığa qəbul elədik, İbrahimov soyadı verdik, o da sağ olsun, qaçışda medal qazandı. Buna niyə sevinməyək? Özümüz qaça bilmirik, qoy əvəzimizə kimsə qaçsın. Bu yolla bəlkə Qarabağı da aldıq.

Bəs sevinməyənlərə qarşı doğrudan da nə tədbir görməliyik? Axı onları özbaşına, qaraqabaq formada respublika ərazisinə buraxmaq da olmaz. İlk növbədə, məsuliyyət yol polislərinin üzərinə düşür. Onlar sevinmədən yola çıxan sürücüləri tutub sevindirməlidir. Məncə, dişləri görünmədən stadionların yanından keçənlərə cərimə balları yazılsa lap yaxşı olar.

İkincisi, Mütəşəkkil Qaşqabaqlılıqla Mübarizə Baş Polis İdarəsi piyadaları tutub qıdıqlamalıdır. Millət elə şeydir ki, özbaşına qoysan heç cür sevinməyəcəkdir. 1992-93-94-95-96-97-98-99-cu illərdə AXC-Müsavat cütlüyü gəlmişdi, gördük da bə! Adi çöpə gülən yox idi! Atalar sözümüzdə deyilən kimi, öz çöpünə gülə bilməyən, başqasının gözündəki tirə ağlayar.

Özü də mən sizə bir sirr açım: uca millətimizi sevindirmək üçün böyük xərclərə ehtiyac yoxdur. Yüngülvari qıdıqlasan qəşş eləyib özündən gedəcəkdir. Cəmi bir saat sevindir - bütün ömrünə bəs edəcəkdir. Sevinmək baxımdan dünyanın ən gözütox millətidir. Örnək üçün, Almaniyada, Fransada, Amerikada milləti sevindirmək üçün gərək ona babat maya qoyasan. Uşağını oxutdurasan, işlə təmin edəsən, tibbi xidməti olsun, abad şəhərdə yaşasın, canım sənə desin, qocalanda ayda iki-üç min dollar pensiya alıb dünya səyahətinə çıxsın və sairə. Azərbaycanda isə insanlara bircə “bakkuş” ver, ömrü boyu sənə minnətdar olacaqdır. Hətta heç o “bakkuş”u da vermə, yalnız şəklini göstər bəs edir. Azərbaycanlıları sevindirmək paketinə bir də debil Elgizin verilişinə stabil baxmaq, manıs Ağadadaşı toya çağırmaq, dana satıb bütün məhəllədə ən yekə maşını almaq imkanı, qul bazarında tozun içində uzanıb “Ayfon”da meyxanaya qulaq asmaq, iki butulka dimedrollu araqla tikə kabab yeyib gəyirmək şəraiti kimi xırda-para şeylər daxildir. Əgər sən bunlara şərait yaratsan orta statistik azərbaycanlı sevinib xoşbəxt olacaqdır, sən də 300 il hakimiyyətdə qalarsan.

Prinsipcə, hətta mən sevinməyin yuxarı qiymətlərini yazdım. Təzəlikcə bir kafenin qabağında elan görmüşdüm: “Kabab 1 manat”. Hələ də fikirləşirəm ki, görəsən, o kababı nədən bişirirlər belə ucuz alınır. Yaxud dükanda 20 qəpiyə xama satırlar. Təsəvvür eləyin, bunu nədən düzəldiblər. Satıcı dedi ən yaxşı satılan mallardan biridir. 10 qəpiyə “Lili” adlı əcaib, mənbəyi bilinməyən “meyvə şirələri” içən, quru supların vermişel surroqatını “çips” yerinə yeyən uşaqların nəsli böyüyür. Onlar bizə nisbətdə daha sevincək olacaqlar.

# Rüstəm İbrahimbəyovun “erməni ilə düşmən deyilik” sözləri sərt etirazlar doğurdu

**Kinodramaturq, Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyovun “The New Times”a müsahibəsi zamanı dediyi bəzi fikirlər şok effekti yaradıb. “Qafqaz triosu” adlı yeni filmin üzərində işləyən, onun prodüseri və ssenaristi olan R. İbrahimbəyov filmdən bəhs edərkən “Trio”nun erməni, azərbaycanlı və gürcü olduğunu, üç dostu ortaq uşaqlıq, gənclik illərinin birləşdirdiyini söyləyib.**



**Ağalar Bayramov:**
“Siz tam dolğunluğu ilə Xocalıda, Kəlbəcərdə nələr olub bilsəydiniz, belə danışmazdınız”



**Mirzə Sakit:**
“Əgər bu sözü hansısa bir YAP funksioneri desəydi, əks tərəf tumanını başına çəkərdi axı...”



**İsgəndər Həmidov:**
“Ermənilər bizim düşmənimiz deyilsə, bəs Şəhidlər Xiyabanında uyuyanları kim qətlə yetirib?!”

**Kinorejissor etiraf edib ki, Azərbaycanda çoxlarına onun baxışları xoş gəlmir:** “Ancaq mən səmimi qəlbdən əminəm ki, biz erməni xalqı ilə düşmən deyilik və gec-tez mütləq barışacağıq. Ermənistan və Azərbaycan xalqları baş verənlərə görə günahkar deyillər. Və mən hər iki tərəfdən aqressiv ritorikanın əleyhinəyəm”, - R.İbrahimbəyov deyib. Azərbaycan ziyalısının, üstəlik də 2013-cü il seçkilərində ölkəyə rəhbərlik etmək üçün ortaya iradə qoymağa cəhd göstərən Milli Şuranın prezidentliyə namizədi olmuş, bu gün də həmin qurumun fəxri sədri statusunu daşıyan bir şəxsin işğal altındakı Azərbaycan torpaqlarını, Qarabağ savaşında həlak olanları, törədilən soyqırım faktlarını, ən nəhayət, 1 ildir Şuşa zindanında saxlanılan kəlbəcərli girovları yaddaşından silərək erməni ilə düşmən olmadığımızı iddia etməsi təbii olaraq birmənalı qarşılanmayıb. Biz də anlayırıq ki, əbədi düşmənçilik mümkün deyil, xüsusilə də qonşuluqda yaşadığımız halda. Amma bu gün Azərbaycan torpaqları işğalda ikən, erməni qatilləri torpaqlarımızda dövran sürərkən bir ziyalının ermənilərə dostluq mesajı göndərməsi qəbul olunan deyil; şəhidlərin ruhunu incitmək, qazilərin yaralarının qaysağını qopartmaqdır. Azərbaycan xalqı zaman-zaman xoş məram nümayiş etdirib. Ancaq nəticəsi İrəvan, Göyçə, Zəngəzur, Qarabağ olubsa, R.İbrahimbəyovun dedikləri qəbulolunan deyil.

**Ancaq onun digər fikirləri də kəskin reaksiyalar doğurub. Söhbət Ukraynanın bir hissəsinin ilhaqına bəraət qazandırılması cəhdindən gedir. Kinorejissorun sitatı:** “Bu yaxınlarda Krımın Rusiyaya birləşdirilməsini götürək. Uşaqlıqda Tolstoyun ”Sevastopol hekayələri”ni oxuyan istənilən şəxs kimi mən də hesab edirəm ki, Krım Rusiya torpağıdır. Bu torpaqlar Xruşşov dövründə Ukraynaya keçib. SSRİ dağılanda Yeltsin bu məsələni həll etmədi, hərçənd kifayət qədər sadə və münaqişəsiz şəkildə buna nail ola bilərdi. Sonra uzun müddət nədənsə heç kim bundan narahat olmadı. Və birdən geosiyasi situasiyanın özəlliklərini nəzərə almadan məsələni sürətlə yoluna qoydular. Nəticədə insanlar həlak olur”. Bəzi müşahidəçilərə görə, R.İbrahimbəyov unudur ki, Krımın işğalına bəraət qazandırmaqla faktiki olaraq Ermənistanın Azərbaycan torpaqlarını zəbt etməsinə də haqq qazandırmış olur. Tanınmış kinorejissorun fikirləri sosial mediada da ciddi müzakirə mövzusudur.

**Tanınmış mədəniyyət xadimi, bədii qiraətçi Ağalar Bayramov özünün feysbuk səhifəsində yazıb:** “Mən Rüstəm müəllimi qınamıram... Çünki Xocalıda atasının gözü qabağında zorlanan qızları öz qızı, işgəncədən naləsi göylərə bülənd olanları, Spitakda boruya doldurulub ağzı qaynaqlanan soydaşlarımızı öz övladı, ağaca sarılaraq yandırılan Təvəkkülü öz qardaşı hesab etməyəndən - vəzifəsindən, şöhrətindən asılı olmayaraq - bundan artıq şey gözləmirəm! Bu, hələ də dərk etmir ki, bu millət *(ermənilər-red.)* əsrlər boyu Rusiyanın əlində alət olub, hələ də dərk etmir ki, 1905, 1918-də də bizə belə unutdurmaq istəyiblər bunların bizə qarşı olan vəhşiliyini... Bu, hələ də başa düşmür ki, bu milləti bizə qarşı sonsuz nifrətə kökləyiblər onların Balayanları...Və bunlara heç zaman etibar yoxdur...”

**A.Bayramov ardınca yazıb:** “Mənim kosmopolit düşüncəli adamlara həmişə nifrətim sonsuzdur! Millətinə olan alçaqlığını ürəyinin süzgəcindən keçirməyi bacarmayıb, yalnız öz şöhrəti haqqında düşünəndən, ”Bir cənub şəhərində” filmi vasitəsi ilə millətinə ikrah hissi ilə üstdən aşağı baxandan, “Səhranın ağ günəşi”ndə müsəlmanı bambılı yerinə qoyub, rusu göylərə qaldırandan nə desən gözləmək olardı! Bu da nəticə... Heç olmasa özünü “elit”, “ziyalı” sayan bu kosmopolit “Oskar” mükafatçısı fransızların “Köhnə tüfəng” filminə baxıb bir papağını qabağına qoyub düşünəydi... Amma çətin!!!

Dad belələrinin əlindən...” A.Bayramov daha sonra İbrahimbəyovun ünvanına ağır ifadələr də işlədib.

**Satirik-şair Mirzə Sakit isə şəxsi feysbuk profilində yazıb:** “Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyovun idiasına görə torpaqlarımızın 20 faizini işğal edən, 10 mindən çox insanlarımızı haqsız yerə qətlə yetirən, yüzlərlə soydaşlarımızı girovluqda saxlayan ermənilər, sən demə, bizimlə cani dildən dost imişlər. Bəs görəsən, milli şuraçılar bu haqda nə deyirlər... Rüstəm İbrahimbəyovun bu açıqlamasından sonra onun fəxri sədrlikdən uzaqlaşdırılması haqda nə düşünürlər, görəsən? Əgər bu sözü hansısa bir YAP funksioneri desəydi, əks tərəf tumanını başına çəkərdi axı...Həə, şuraçılar, nə deyirsiniz?..” **Məsələyə Milli Şuradan reaksiya gəlib və fəxri sədrin dedikləri təqdir olunub:** “Rüstəm İbrahimbəyovun bütün fikirləri ilə razıyam. Həqiqətən də ermənilərlə yanaşı yaşamağa məhkumuq. Gec-tez mövcud münaqişəyə yekun vurulmalı, torpaqlarımız işğaldan azad olunaraq geri qaytarıldıqdan sonra bu iki xalq arasında sülh bərqərar edilməlidir. Bunun başqa variantı yoxdur. Qonşunun biri aqressiv olduqda digəri onu öz müdrik davranışı ilə düz yola gəlməyə vadar etməlidir. Rüstəm İbrahimbəyov ermənilərə məhz bu aspektdən yanaşır”. **Bunu “İnterpress.az”a Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Namizəd Səfərov deyib. N.Səfərov qeyd edib ki, R.İbrahimbəyov müsahibəsində sülhün bərqərar olunmasının zəruriliyini qeyd edir:** “İstənilən müharibə və ya münaqişəyə sonda sülhlə yekun vurulmalıdır. 20 ildən çoxdur ki, torpaqlarımızın 20 % -i işğaldadır. On minlərlə vətəndaşımız həlak olub, itkin düşüb. Sülh çağırışları səsləndirmək heç vaxt qəbahət hesab oluna bilməz. Yalnız böyük insanlar buna qadir olurlar. Rüstəm İbrahimbəyov məhz belə böyük insanlardandır. Düşünürəm ki, erməni ziyalılarından da bir nəfər ağıllı insan meydana çıxaraq bizə qarşı tutduqları mövqeyin tamamilə səhv olduğunu onlara anlada biləcək”.

**Bu barədə “Yeni Müsavat”a danışan sabiq daxili işlər naziri, Milli Demokrat Bozqurd Partiyasının sədri İsgəndər Həmidovun reaksiyası isə sərt oldu:** “Ermənilər bizim düşmənimiz deyilsə, bəs Şəhidlər Xiyabanında uyuyanları kim qətlə yetirib?! Azərbaycanın elə bir rayonu, kəndi yoxdur ki, orda şəhid olmasın, onlar kimlə döyüşdə həlak olublar?” **İ.Həmidov kinorejissorun Amerika mətbuatında “sülhpərvər” mövqedən çıxış etməsinə bu cür şərh verdi:** “Yəqin qrant almaq istəyir. Bu günə qədər Qarabağda o qədər insan tələf olub, ailələr dağılıb. Xocalı soyqırımını kim törədib? Ermənilər düşmən deyilsə, bizim torpaqları kim işğal edib, dədə-baba yurdlarımızı, qəbiristanlığımızı kim dağıdıb? **Daha düşmən nə təhər olur?” Belə mövqedən çıxış edən R.İbrahimbəyovun Milli Şuranın fəxri sədri olmasına gəldikdə, sabiq nazir belə dedi:** “Milli Şura yarananda 127 nəfər içərisində onun əleyhinə səs verən təkcə mən olmuşam”. İ.Həmidov rejissorun Krımı “Rusiya ərazisi” adlandırmasına da etiraz etdi: “Əvvəla, Krım türk torpağıdır. Ukraynanın tərkibində olanda Yuşşenko yaxşı bir fərman verdi ki, Krım tatarların torpağıdır. Krım heç vaxt Rusiya torpağı olmayıb. Sadəcə, işğalçı siyasət nəticəsində və Ukraynanın zəifliyindən istifadə edərək Krımı özünə birləşdirdi”.

**Mövzuya dair R. İbrahimbəyovun da fikirlərini dərc etməyə hazırıq.**

❑ **Cavid TURAN**




# “Biz ermənilərlə düşmən deyilik və mütləq barışacağıq”

## Kinodramaturq, Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyov “The New Times”a müsahibəsində Azərbaycandan niyə didərgin düşməsindən və başqa ilginc məqamlardan danışıb

**Kinodramaturq, Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyovun xeyli vaxtdır Azərbaycana dönə bilmədiyi məlumdur. O da məlumdur ki, bir müddətdir o, yeni film üzərində işləyir. “Qafqaz triosu” adlı yeni filmin prodüseri və ssenaristi onun özüdür. Film Zaqafqaziya xalqlarının münasibətlərindən bəhs edir.**

“The New Times” nəşrinə müsahibəsində kinodramaturq filmi çəkməyə vadar edən səbəblərdən, ölkəsindən niyə çıxdaş edilməsindən danışıb və bundan dolayı bəzi siyasi mövzulara, o cümlədən Azərbaycan hakimiyyəti ilə münasibətlərinin tarixçəsinə toxunub. Nəşr müsahibəyə belə bir giriş-təqdimatla başlayır:

“Rüstəm İbrahimbəyov - Azərbaycan kinosunun klassiki öz vətənində siyasətə fəal şəkildə qatılan kimi "persona non qrata" elan edilib. Son illər o, heç nə çəkməyib. Və budur - qəfildən kinematoqrafiyaya qayıdır. İyunun sonunda yeni film - “Qafqaz triosu” üzərində iş tamamlanır. Bu məhsul Gürcüstanın, Fransanın və Rusiyanındır. Rejissor - Eldar Şengelayadır:

***- Deyirlər, filmdə sizə oxşayan personaj var. Belədirmi?***

- Müəyyən dərəcədə. Bu, baş qəhrəmanın atasının dostudur. O hesab edir ki, Azərbaycan öz siyasətini düzgün qurmur, neft iynəsinə oturub və ehtiyatlar qurtaran kimi hər şey bir anda dağıla bilər, əgər indidən ağıllı şəkildə postneft iqtisadiyyatı qurulmağa başlamasa.

***- “Qafqaz triosu” adının arxasında nə durur?***

- Trio - erməni, azərbaycanlı və gürcüdür. Üç dostu ortaq uşaqlıq illəri və gənclik birləşdirir. Bizim zamanda bu mövzu risklidir... Azərbaycanda çoxlarına mənim baxışlarım xoş gəlmir. Ancaq mən səmimi qəlbdən əminəm ki, biz erməni xalqı ilə düşmən deyilik və gec-tez mütləq barışacağıq. Ermənistan və Azərbaycan xalqları baş verənlərə görə günahkar deyillər. Və mən hər iki tərəfdən aqressiv ritorikanın əleyhinəyəm.

***- Filmin əsasında real situasiya dayanırmı?***

- Bəli. Mənim tanışım olan bir aktrisa azərbaycanlıya ərə getdi və onun familiyasını götürdü. Onun birinci ərindən - ermənidən oğlu var idi. Atalıq uşağı oğulluğa götürdü, ona öz azərbaycanlı soyadını verdi. Uşaq böyüdü, Moskvaya gəldi və artıq yetkinlik yaşında ikən öz doğma atası ilə tanış oldu və hətta dostlaşdı *(bu rolu Yuri Stoyanov oynayır)*. Atası onu öz əvvəlki - erməni familiyasını qaytarmaq üçün yola gətirdi. Aydındır ki, bu zaman dəhşətli mərəkə qopdu. Ana-azərbaycanlı hiddətləndi: “Onsuz da hamı bilir ki, sənin atan erməndir. Ancaq heç kim heç vaxt sənin xətrinə dəyən söz deməyib, indi isə sən öz qərarınla bizi çətin vəziyyətə qoyursan”.

Təəssüf ki, bu həqiqətdir. Belə situasiya Bakıda insanların həyatını ciddi şəkildə qaralda bilər. Ancaq erməni ata israr göstərir və anlamaq istəmir ki, onun bu arzusu mövcud reallıqlarda faciəyə gətirə bilər. Bu, sırf ailə konfliktidir. Ancaq bəzən haqlı görünən bir şeyin alınmasına israrla cəhd eləmək çox böyük miqyas ala bilər.

Misal üçün, bu yaxınlarda Krımın Rusiyaya birləşdirilməsini götürək. Uşaqlıqda Tolstoyun “Sevastopol hekayələri”ni oxuyan istənilən şəxs kimi mən də hesab edirəm ki, Krım Rusiya torpağıdır. Bu torpaqlar Xruşşov dövründə Ukraynaya keçib. SSRİ dağılanda Yelstin bu məsələni həll etmədi, hərçənd kifayət qədər sadə və münaqişəsiz şəkildə buna nail ola bilərdi. Sonra uzun müddət nədənsə heç kim bundan narahat olmadı. Və birdən geosiyasi situasiyanın özəlliklərini nəzərə almadan məsələni sürətlə yoluna qoydular. Nəticədə insanlar həlak olur.

***- Doğrudanmı azərbaycanlılara sizinlə əməkdaşlıq eləmək dəhşətli gəlir?***

- 2007-ci ilədək mənim Azərbaycan hakimiyyəti ilə normal münasibətlərim olub. Qarabağ məsələsi barədə söylədiklərimə görə mənə hücum çəkən milli mətbuatla da problemim yox idi. Mənim “Dalğaların toplanması” povestimdən sonra - əsər Azərbaycanın həlli yetişən problemlərindən bəhs edir - hakimiyyət də özünü incik saydı. Mənə çirkab atmağa, məni xalq düşməni adlandırmağa, heç nədən iqtisadi sui-istifadələrdə ittiham eləməyə başladılar. Neçə ildir məşğul olduğum “Şərq-Qərb” populyar festivalını qapatdılar, festival mərkəzinin inşasını dayandırdılar.

2012-ci ildə mən “Kilsə zəngi kimin üçün çalınır?” məqaləsini yazdım. Məqalədə deyilirdi ki, mənim ölkəmdə hər yanda korrupsiya və amansız totalitarizm hökm sürür, Azərbaycanda siyasi məhbusların sayı bütün postsovet məkanındakından çoxdur. Sonra Demokratik Qüvvələrin Milli Şurasına rəhbərlik elədim - sadəcə ona görə ki, bunu etməyə bilməzdim. Mənə şərt qoyulmuşdu ki, prezident seçkilərində müxalifətin vahid namizədi olum. Ancaq Rusiya vətəndaşı olduğum üçün seçkilərə xoşbəxtlikdən buraxılmadım, mənim əvəzimə isə gözəl tarixçi Cəmil Həsənli irəli sürüldü.

İndi vəziyyət belədir ki, mənimçün Bakıya qayıtmaq təhlükəlidir. Bir dəfə məni ölkə girişində 4 saat, çıxışında 2 saat saxladılar. Və mən başa düşdüm ki, növbəti dəfə məni sadəcə, ölkədən buraxmaya bilərlər.

**“Uşaqlıqda Tolstoyun "Sevastopol hekayələri"ni oxuyan istənilən şəxs kimi mən də hesab edirəm ki, Krım Rusiya torpağıdır"**

**“Mənə şərt qoyulmuşdu ki, prezident seçkilərində müxalifətin vahid namizədi olum. Ancaq Rusiya vətəndaşı olduğum üçün xoşbəxtlikdən seçkilərə buraxılmadım...”**

❑ **Siyasət şöbəsi**

# Qərb Azərbaycanın əsas silah satıcısını zəif yerindən sıxır



## Rusiyaya qarşı sanksiyalar daha 6 ay uzadıldı, nəticə də var - Moskva ritorikanı yumşaldır, DÇ-2018-in büdcəsini ixtisara salır; Bakının Kreml üçün dəyəri artır...

**Avropa Birliyi (AB) Rusiyaya qarşı iqtisadi sanksiyaların müddətini daha 6 ay - 31 yanvar 2016-cı ilədək uzatdı. Səbəb kimi Ukraynaya dair əldə olunan Minsk anlaşmasına Moskvanın tam həcmdə əməl etməməsi göstərilir.**

Bundan əlavə, sanksiyaların təsiri altına Krım da salınıb. O sırada Krımda istehsal olunan məhsulların AB ölkələrinə gətirilməsinə qadağa da var. AB vətəndaşlarına və AB ərazisindəki şirkətlərə Krım iqtisadiyyatına sərmayə qoymaq, habelə orada daşınmaz əmlak almaq və Krım şirkətlərini maliyyələşdirmək qadağan olunur.

*****

Beləcə, məsələ ilə bağlı AB ölkələri arasında parçalanma yaratmağa nail ola bilməyən Rusiya ən azı daha yarım il ağır sanksiyalar rejimi altında qalmalı olacaq. Hərçənd bundan bir neçə gün öncə prezident Vladimir Putin bildirmişdi ki, sanksiyalara rəğmən, ölkə dərin iqtisadi böhrandan qaça bilib, inflyasiya üzərində nəzarəti saxlayıb, rublun kursunu sabitləşdirib.

Lakin bir çox iqtisadi analitiklərə görə, Putinin arxayınçılığına bir elə ciddi əsaslar yoxdur və ölkə daha böyük maliyyə-iqtisadi təlatümlərlə üzləşə bilər. Xüsusən də YUKOS işi ilə bağlı Haaqadakı Beynəlxalq Arbitraj Məhkəməsinin Rusiyaya kəsdiyi 50 milyard dollarlıq cərimədən sonra bu ehtimal güclənib.

Məlumatlara görə, Ukrayna ilə bağlı da Beynəlxalq Məhkəmə analoji qərar verə bilər. Yəni Rusiyanın iqtisadi cəhətdən zəiflədilməsi prosesinin davamı mütləq gələcək - ta bu ölkə beynəlxalq hüquqa sayğılı olmayınca, qonşu ölkələrin suverenliyi və ərazi bütövlüyünə hörmət etməyincə.

*****

Əslində Rusiya rəhbərliyi vəziyyətin yaxşı fərqindədir. Bunu aşkar büruzə verməsə də, müəyyən əlamətlər var. Başqa sözlə, Qərbin Kremlin ən zəif yerindən sıxmaqda davam eləməsi tədricən də olsa nəticəsini verməkdədir. İlk növbədə də Kremlin ənənəvi aqressiv ritorikasında bəzi yumşalmalar sezilməkdədir.

Məsələn, ötən həftə Peterburqda keçirilən Beynəlxalq İqtisadi Forum çərçivəsində etdiyi çıxışda Vladimir Putin Rusiyanın fövqəlgüc olmağa can atmadığını, Qərblə əməkdaşlıqda maraqlı olduğunu bəyan etmişdi. YUKOS işi ilə bağlı fantastik cərimənin ardınca rəsmi Moskvanın leksikonunda ənənəvi hay-küyçü ritorika ilə yanaşı xəfif yumşalmalar bir qədər də çox müşahidə olunmaqdadır.

Prezident Administrasiyasının rəhbəri Sergey İvanovun “Financial Times”ə müsahibəsi də bu qəbildən sayıla bilər. İvanov müsahibədə Rusiyanın Baltikyanı ölkələrə mümkün hücumla bağlı iddiaları “psixi pozuntulu adamların bəyanatı” adlandırıb və belə bəyanatların arxasında həmin ölkələrin məkrli məqsədlərinin durduğunu deyib.

**Sitat:** “Rusiyanın hərbi aqressivlikdə ittiham edilməsi mənə gülməli gəlir. Bizi indi az qala hər şeydə suçlayırlar, çünki belə sərfdir. Buradan həm də millətçilik və ksenofobiyanın artmasının qoxusu gəlir... Yəni siz doğrudan da ciddi şəkildə düşünürsünüz ki, biz NATO ilə müharibəyə başlamaq istəyirik? Biz məgər özünəqəsdçilərik?”

*****

Bu arada məlum olub ki, şimal qonşumuz 2018-ci ildə keçiriləcək futbol üzrə Dünya Çempionatının büdcəsini 30 milyard rubl azaldıb. Yəni hökumət əvvəl nəzərdə tutulan məbləği bu qədər həcmdə ixtisara salıb: 660 milyard 627,8 milyonluq büdcə 631 milyard 459,9 milyon rubl olub.

Sözsüz ki, bu da sanksiyaların təsirinin göstəricisidir. Aydındır ki, hərbi və siyasi təzyiq vasitələrindən fərqli olaraq iqtisadi təzyiq rıçaqları özünü zaman etibarilə dərhal yox, bir qədər sonra göstərir. Rusiya da istisna olmayacaq. Moskvanın öz iqtisadiyyatını böhrandan qorunması getdikcə daha çətin olacaq.

Rusiyanın əsas ümid yerlərindən biri və bəlkə də birincisi isə silah satışıdır. Demək, Moskva əlindən gələni edəcək ki, öz silah alıcılarını itirməsin. Sonuncuların sırasında Azərbaycan da var. Özü də son illər bu sahədə Rusiya ölkəmiz üçün əsas silah satıcısına çevrilib. Bu da o anlama gəlir ki, Moskvanı iqtisadi kollapsdan qorumaq işinə Bakı da sövq-təbii cəlb olunub və öz mümkün töhfəsini verir. Kreml bunu dəyərləndirməyə bilməz.

Etibarlı silah alıcısı kimi Azərbaycanın Rusiya üçün dəyəri artıb. İstisna deyil ki, son vaxtlar Azərbaycan-Rusiya münasibətlərində müşahidə edilən istilik, atan qarşılıqlı əlaqələr ən əvvəl bu amillə bağlıdır.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 135 (6163) 23 iyun 2015




# ““125-lər”dən istefa gözləyənlər çoxdur”

## İlhamiyyə Rza: “Baş verənləri qiymətləndirib yolumuza davam edirik”

**Bir neçə gün əvvəl Milli Məclisin Avropa Oyunları ilə bağlı verdiyi bəyanatla bağlı Ümid Partiyasının sədri İqbal Ağazadə daha çox tənqidə məruz qalıb. Hətta onun təsisçisi olduğu “125-lər” siyasi klubundan bir nəfər istefa verib. Xalisə Şahverdi “125-lər”in digər üzvlərindən də bu addımı atmalarını xahiş edib. Həmçinin bildirilir ki, klubdan növbəti istefaların olacağı istisna deyil.**

**“125-lər” siyasi klubunun başqanı İlhamiyyə Rza** məsələ ilə bağlı musavat.com-a bildirib ki, bəyanat onlarla razılaşdırılmasa da, iradları yoxdur: “Biz istər NİDA-çılar, istərsə də İntiqam Əliyev, İlqar Məmmədov, Tofiq Yaqublu, Xədicə İsmayılın həbsini və digər siyasi mahiyyətli həbsləri pisləyən bəyanatlar vermişik. Bu insanların azadlığa buraxılması ilə bağlı tələblər irəli sürmüşük, aksiyalar keçirmişik. Prezidentə həm öz adımızdan, həm də ziyalılar adından müraciətlər ünvanlamışıq. Və bütün bunlar mediada öz əksini tapıb. Yəni ”125-lər" olaraq mövqeyimiz kifayət qədər aydındır. Ayrıca, mən bir fərd olaraq, “125-lər” təsis olunmazdan çox öncə vətəndaş cəmiyyəti fəallarının tutulmasına münasibətimi aydın şəkildə sərgiləmişəm. Millət vəkili, Ümid Partiyasının rəhbəri, “125-lər” siyasi klubunun təsisçilərindən biri, İqbal Ağazadənin Avropa Parlamentindəki dinləmələrlə bağlı bəyanata imza atması “125-lər” olaraq, siyasi həbslərə olan münasibətimizi dəyişməyib. İqbal Ağazadənin millət vəkili və siyasi partiya sədri olaraq istənilən kürsüdən öz mövqeyini söyləmək haqqı var və o bu bəyanata “125-lər” adından qoşulmayıb. Bəyanat bizimlə müzakirə edilməyib və ona qoşulmaq ehtimalı təbii ki, bizimlə razılaşdırılmayıb".

**O, “125-lər”də baş verən istefaya da münasibətini açıqlayıb və bunu normal hesab etdiyini bildirib:** “İstənilən təşkilatdan istefaların olması normaldır. Sıralarımızda olan bir nəfərin səhv hesab etdiyimiz addımı digərlərinə təşkilatdan getmək üçün əsas deyil. Sadəcə, gedəndə suallara da hazır olmalısan və cavablarda haqsızlıq etməməlisən. Xalisə Şahverdi bir ilə yaxın təhsili ilə bağlı Bakıda olmadı. Ola bilər ki, məsafələr komanda hissinə öz təsirini göstərib və o olmayan müddətdə keçirdiyimiz aksiyaları, eləcə də bütün fəaliyyətimizi, indiyədək etdiklərimizi tək İqbal Ağazadəyə aid edib. İntiqam Əliyevlə bağlı sosial şəbəkələrdə flaşmob və bu kimi digər aksiyalar təşkil edəndə, Xalisə Bakıda deyildi. Ən azı ədalət naminə deyə bilərdi ki, məsələn, İntiqam Əliyevlə bağlı yazı müsabiqəsinin ideyası Anar Qasımlıya, yaxud sosial şəbəkədə bu mövzuda flaşmob keçirmək ideyası mənə aid olub. Əlbəttə, bütün ideyalar klubda müzakirə edilir, tam başqa çalarlar alır, müxtəlif detallarla zənginləşdirilir. Beləliklə, klubun bütün təşəbbüsləri, addımları bir şəxsə deyil, hamımıza aid olur. Biz demokratik bir qurum yaratmışıq. Belə demokratik bir ortamda və sizin də tanıdığınız bu qədər parlaq simanın bir araya toplaşdığı bir təşkilatda avtoritar qərarların verilməsini necə güman etmək olar ki? Axı bu insanların hər birini ayrı-ayrılıqda yaxşı tanıyırsınız, dəyərlərini, məsələlərə münasibət və mövqeyini bilirsiniz. Ona görə də bütün təşəbbüslərimizi tək İqbal Ağazadəyə aid edən Xalisə qalanlara münasibətdə haqsız yanaşma sərgilədi və bu, çox üzücü idi. Olanları, baş verənləri qiymətləndirib, təşkilatımızda əksəriyyətin mövqeyinə arxalanaraq yolumuza davam edirik”.

**İ.Rza həmçinin deyib ki, “125-lər”dən artıq istefa gözləmir:** “Biz gözləmirik, amma gözləyənlər, belə görürəm ki, çoxdur. Çünki bəlli istefa haqda sual edənlər, ora cəm şəkilçisi əlavə etmədən, sadəcə, istefa sözünü belə işlədə bilmirlər”.

**O, həmçinin qeyd edib ki, İ.Ağazadənin bəyanata imza atması və məlum istefa İdarə Heyətində müzakirə edilib:** “Biz bunu dərhal etdik. Geniş müzakirələrimiz, hətta mübahisələrimiz də oldu. Onun arqumentlərini dinlədik. Özü də mətbuatda mövqeyini, nə üçün bu bəyanata qoşulduğunu açıqlayıb. Ölkədə insan haqları ilə bağlı mənzərənin çox acınacaqlı olduğunu hamımız görürük, bilirik. İqbal bəy özü də dəfələrlə Milli Məclis kürsüsündən bu problemi səsləndirib. Siyasi motivli həbslərə son qoymağa çağırış edib. İndi belə bir bəyanata qoşulursa, demək ki, kifayət qədər arqumentləri var. Bu arqumentlərlə razılaşmasaq belə, onları ən azı dinləməyə dəyər”.

❑ Röya RƏFİYEVA

# Avropa Şurasının yay sessiyası başladı

## Avropa parlamentarları Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının durumunu da müzakirə edib

**İyunun 22-də Strasburqda Avropa Şurası Parlament Assabmleyasının yay sessiyası öz işinə başlayıb. Sessiyanı AŞ PA sədri Ann Brasör açıb. Deputatları salamladıqdan sonra xanım Brasör nümayəndə heyətlərinin iştirakı, sessiyanın gündəliyindəki məsələlərlə bağlı sessiya iştirakçılara bilgi verib. Daha sonra iyunun 26-dək davam edəcək sessiyanın gündəliyinə təklif edilən məsələlər səsə qoyulub və təsdiq edilib.**



Bundan sonra AŞ PA Bürosunun Daimi Komitəsinin işi haqqında İtaliyadan olan deputat Adel Qambaronun hesabatı dinlənib. Hesabatda mart ayında keçirilən yaz sessiyasından sonra görülən işlər haqqında geniş informasiya toplanıb. Hesabat səs çoxluğu ilə qəbul edilib.

Niderlanddan olan deputat Tini Koks deputatlara AŞ PA-nın Türkiyədə keçirilən 7 iyun parlament seçkisini izləyən müşahidə missiyasının yekun qiymətləndirməsini təqdim edib. Təqdimatda seçkinin azad və ədalətli, beynəlxalq hüquq normalarına uyğun keçirildiyi və Türkiyə vətəndaşlarının iradəsini ifadə etdiyi bildirilir. Səsvermədə deputatlar hesabatın lehinə səs verib.

Daha sonra Bosniya və Hersoqovinanın xarici işlər naziri İqor Karnadak Avropa Şurası Parlament Assambleyasının Nazirlər Komitəsinin sədri kimi deputatlara təqdim edilib. Qeyd edək ki, bu səlahiyyəti rotasiya üsulu ilə Avropa Şurasına bütün üzv ölkələr 6 ay müddətinə həyata keçirir. Azərbaycan ötən ilin yay sessiyasında Nazirlər Şurasına rəhbərliyi qəbul etmişdi.

Sessiyanın ikinci hissəsində isə sessiyada qonaq qismində iştirak edən Birləşmiş Millətlər Təşkilatının baş katibi Pan Gi Mun çıxış edib. Pan Gi Munun çıxışı Avropa məkanında və bütünlükdə dünyada baş verən konfliktlərin nizamlanmasına həsr olunub. BMT-nin baş katibi 21-ci əsrdə münaqişələrin hərbi deyil, dinc yolla nizamlanması üçün beynəlxalq səylərin artırılmasına çağırıb.

Daha sonra sessiyaya qonaq kimi dəvət olunan Malta prezidenti Mari-Luiz Koleyro Preka Bosniya və Hersoqovinanın rəhbəri Mladen İvaniç çıxış ediblər. Hər iki lider Avropa məkanında demokratiyanın dəstəklənməsi üzrə təşəbbüslər, Orta Doğu və Afrika qitəsindəki savaşlar və siyasi proseslər səbəbindən Avropaya miqrant axınına münasibətlərini açıqlayıblar.

İş gün 1 saatlıq debatlarla davam edib. Debatlarda deputatlar səslənən hesabatlara münasibət bildirib, ölkələrin öhdəliklərini yerinə yetirmələri ilə bağlı məsələlərlə toxunublar. Bundan başqa, deputatlar Rusiya Federasiyası nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması, Azərbaycandakı demokratik institutlar, Macarıstandakı daxili durum, Ukrayna münaqişəsi zamanı itkin düşən şəxslərin axtarışı, Avropa ölkələrinin ciddi probleminə çevrilən miqrasiya axınının yaratdığı problemlərin çözüm yolları haqqında fikirlər səsləndirilib.

AŞ PA-nın ilk sessiyası Avropa Şurasının baş katibi Torbörn Yaqlandın deputatların suallarına cavabları ilə tamamlanıb.

❑ Aygün MURADXANLI

# “AŞ PA Azərbaycanla bağlı qətnamə də qəbul edə bilər”

## Razi Nurullayev: “Vəziyyət o həddə çatıb ki, ölkəmizə növbəti kart-blanşın verilməsi gözlənilən deyil”

**Avropa Şurası Parlament Assambleyasının yay sessiyası başlayıb. Artıq Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun başçılığı ilə parlament nümayəndə heyəti qurumun yay sessiyasında iştirak etmək üçün iyunun 21-də Fransanın Strasburq şəhərinə səfər ediblər.**




Nümayəndə heyətinin tərkibinə deputatlardan Rafael Hüseynov, Sabir Hacıyev, Rövşən Rzayev, Aydın Abbasov, Sahibə Qafarova, Qənirə Paşayeva, Sevinc Fətəliyeva və Elxan Süleymanov daxildir.

Tədbirdə AŞ PA-nın Daimi Komitəsi və Büronun fəaliyyəti ilə bağlı hesabat dinləniləcək, Azərbaycanda demokratiya institutlarının fəaliyyəti, Türkiyədə son parlament seçkilərinin nəticələri, Macarıstandakı son durum, Mərakeş parlamenti ilə münasibətlər, Ukraynada münaqişə zamanı itkin düşmüş şəxslərin taleyi, media etikası və bu sahədə şəffaflığın artırılması, Rusiya Federasiyası nümayəndə heyətinin səlahiyyətləri ilə bağlı məsələlər ətrafında müzakirələr aparılacaq.

Qeyd edək ki, AŞ PA həmişə Azərbaycan iqtidarına loyal münasibəti ilə seçilib. İndi Azərbaycan və Avropa Birliyi arasında olan münasibətlərin gərgin olduğu vaxtda AŞ PA-nın Azərbaycanla bağlı məsələni gündəliyə daxil etməsi suallar yaradır. Bir sıra ekspertlər hesab edir ki, AŞ PA-nın yaya sessiyası Azərbaycan üçün gərgin keçə bilər. AŞ PA-nın Azərbaycanla bağlı qətnamə qəbul edəcəyinin istisna olunmadığını düşünənlər də var.

**Politoloq Razi Nurullayev isə hesab edir ki, Azərbaycanda gedən proseslər o qədər mürəkkəbdir və o qədər inkişaf edib Azərbaycan hakimiyyətin dostu olan, illər uzunu Azərbaycan hakimiyyətini müdafiə edənlər də artıq nə hakimiyyəti, nə Azərbaycanı müdafiə edə bilmir:** “Bu da Azərbaycanda həyata keçirilən həbslərlə bağlıdır. İndiyə qədər Avropada belə bir təəssürat var idi ki, Azərbaycanda demokratik dəyişikliklərə yol açılacaq, Azərbaycan dəyişikliklərə getmək imkanına malikdir, bu niyyətdədir. Bu, AŞ PA məruzəçilərinin hesabatında da özünü büruzə verirdi. Lakin artıq mənə belə gəlir ki, vəziyyət o həddə çatıb Azərbaycana növbəti kart-blanşın verilməsi gözlənilən deyil. Avropa Parlamentinin çağırışlarında, qətnamələrində də bu özünü büruzə verir. AŞ PA-nın da bu dəfə Avropa Birliyi və Avropa Parlamentindən fərqli bir mövqe nümayiş etdirməsi real görünmür. O baxımdan, qətnamə olmasa da, hər halda, Azərbaycanda insan haqları, demokratiya məsələləri barədə yəqin ki, kəskin çıxışlar olacaq”.

**R.Nurullayev onu da qeyd etdi ki, Azərbaycan nümayəndə heyəti nə qədər çalışsa da yəqin ki, Azərbaycandakı durumla bağlı, Azərbaycan əleyhinə səslənən bir çox çıxışları, addımları dayandıra bilməyəcək:** “Ola bilsin ki, bununla bağlı Azərbaycana müraciət də olsun, qətnamə də qəbul olunsun. Bunları gözləmək olar. Digər bir tərəfdən, nəzərə almaq lazımdır ki, Azərbaycan Avropa Birliyi ilə saziş imzalamaqdan imtina edib. O baxımdan Avropa dövlətlərinin əlində əsas və bir az da bəhanə var ki, Azərbaycanın üzərinə gəlsinlər. Eyni zamanda Avropa Birliyinin Dağlıq Qarabağ münaqişəsini də müzakirə etməsi ondan xəbər verir ki, Avropa Birliyi hələ də Azərbaycanla dostluğunu saxlamaq istəyir. Azərbaycan hakimiyyəti hər zaman Dağlıq Qarabağ məsələsini vurğulayıb və açığını etiraf etmək lazımdır ki, Dağlıq Qarabağ məsələsinə Avropa Birliyinin mövqeyi ilə bağlı Azərbaycan hakimiyyətinin səsləndirdiyi bütün ittihamlar tamamilə doğrudur. Avropa Birliyinin, AŞ PA-nın Dağlıq Qarabağ məsələsinə münasibəti ikili standarta söykənir. Düşünürəm ki, bu dəfə AŞ PA-da Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycanın xoşuna gələcək çıxışlar olsun. Bununla onlar demokratiya məsələsi ilə bağlı sərt çıxışları kompensasiya etmək məqsədi güdə bilərlər”.

❑ Etibar SEYİDAĞA

# Prezidentlə fotosu yayılan Qarabağ qazisi ilə özəl müsahibə

**Bakıda keçirilən I Avropa Oyunlarını əlil arabasında işıqlandıran yeganə fotoqraf, 1-ci qrup Qarabağ qazisi İlham Məhərrəmovun prezident İlham Əliyevlə görüşməsi və birgə fotolarının yayılması mediada maraqla qarşılanıb. Sosial şəbəkələrdə İlham Məhərrəmovun həm fiziki məhdudiyyətlərinə rəğmən ictimai həyatda öz sözünü deməsi, həm də ölkə başçısının əngəlli insanlara diqqət və səmimiyyəti maraq doğurub.**



# “Fotoaparatımı alıb köməkçisinə verdi və dedi ki, şəklimizi çək”

## İlham Məhərrəmov: “Biz zəhmətdən, əziyyətdən qorxmuruq, bizə şərait yaradılsa çalışarıq və çalışmaq istəyirik”

*Musavat.com sosial şəbəkələrdə paylaşılan bu fotoya olan marağı nəzərə alaraq İlham Məhərrəmovla müsahibəni təqdim edir.*

***- İlham bəy, əvvəlcə özünüzü təqdim edin, oxucularımız sizi tanısın.***

- Mən 1971-ci ildə doğulmuşam. Sovet ordusunda Moldovada hərbi xidmət keçmişəm. Mən ordudan qayıdanda artıq Qarabağ müharibəsi başlamışdı, torpaqlarımız erməni işğalına məruz qalmışdı. Mən də buna səssiz qala bilməzdim və könüllü olaraq 21 yaşımda Qarabağa döyüş bölgəsinə yollandım. 23 yaşımda ikən ağır yaralandım. Bədənimdə 30-a yaxın mərmi yarası var. O gündən əlil arabasına məhkum oldum. Ancaq bu mənim ictimai aktivliyimə mane olmadı, 10 il əvvəl kamandan ox atma üzrə respublika çempionu olmuşam. Hazırda saglamlıq imkanları məhdud şəxslər üçün peşə reabilitasiya mərkəzində müəllim işləyirəm. Parolimpiya komitəsinin koordinatoruyam. Həmçinin “Arabaçı TV”-nin rəhbəriyəm. Televiziyamızda 10 nəfər könüllü işçi ilə çalışırıq. Avropa Oyunlarına 20 nəfər əlilliyi olan insanı könüllü kimi cəlb etmişəm, özüm də qrup rəhbəriyəm. "Kristal Holl"da media qrupun üzvüyəm.

***- İlham bəy, ölkə başçısı ilə görüşünüzü gözləyirdinizmi, necə oldu ki, bu foto çəkildi?***

- Əslində bilmirdim necə olacaq. Mən sadəcə hər gün əlimdə fotoaparatla orada idman yarışlarını çəkirdim. Bu arada onlarla tanınmış insanla şəkil çəkdirmişdim. Xüsusən də nazirimiz Səlim Müslümov məni görəndə çox sevindi. Çünki əlilliyi olan insanın işləməsi sosial siyasətin bir uğurudur. Onu da qeyd edim ki, idman zalları əlillərin hərəkəti üçün çox rahatdır. Prezident İlham Əliyevlə rastlaşanda onun şəklini çəkmək istədim. O isə məndən fotoaparatı alıb köməkçisinə verdi və dedi ki, bizim şəklimizi çək. Bu da arenadakı tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

***- Təəssüratlarınız necə oldu, aranızda nə dialoq keçdi?***

- Etiraf edim ki, həmin an çox həyəcanlandım. Mənimlə şox səmimi və mehriban söhbət etdi. Mən dedim ki, cənab prezident, sizinlə görüşmək istəyirəm. O da dedi ki, neçə gündür səni görürəm, izləyirəm, mən də səninlə görüşmək istəyirəm. Mən vizit kartımı verdim, prezident bildirdi ki, səninlə görüşəcəyəm.

***- İlham bəy, hazırda əngəlli insanların bir çox problemləri var və bu görüş sizin üçün bir fürsət yaradır. Ölkə başçısı ilə görüşdə hansı problemləri irəli sürməyi düşünürsünüz?***

- Bilirsiniz, mən özüm 21 ildir əlil arabasındayam, əlillərin bir çox problemləri var ki, onları prezidentə demək istərdim. Əsasən fiziki məhdudiyyətli insanlar üçün iş yerlərinin açılmasını istərdim. Mən özüm də orada göstərdim ki, biz zəhmətdən, əziyyətdən qorxmuruq, bizə şərait yaradılsa çalışarıq və çalışmaq istəyirik.

***- Bu foto əngəlli insanlar üçün bir ümid oldu. Sizcə, ölkə başçısının bu diqqətindən sonra əngəlli insanların durumunda hansı dəyişikliklər ola bilər?***

- Mən bu işimin effekt verəcəyini bilirdim. Bu səbəbdən oyunların başlamasından 5-6 ay əvvəl bir iş planı tərtib etdim. Məqsədim ilk olaraq əlilliyi olan insanları könüllülüyə cəlb etmək, həmçinin bu qrupdan olan şəxsləri oyunlara dəvət etmək, idman zallarında insanlarla daha çox ünsiyyətdə olmaqla ictimai həyata adabtasiyalarına yardım etmək idi. Çünki “Arabaçı TV” olaraq bizim məqsədimiz əlilliyi olan insanların cəmiyyətə inteqrasiyasına dəstək olmaqdır. Əlillər və cəmiyyət, əlillər və məmurlar arasında körpü olmaqdır. Bu planın əsas hissəsi baş tutdu. Bu foto yetərincə diqqət çəkdi. Cəmiyyətin əlillərə baxışı dəyişdi. Mən burada tək özümü deyil, 630 min əlilliyi olan insanı təmsil etdim. Artıq heç kim əlilə dilənçi, yazıq kimi baxmayacaq. Bundan sonra özünə qapanan, cəmiyyətə inamı olmayan əlillər də mənə baxıb daha pozitiv və aktiv olmağa can atacaq. Növbəti dəfə ölkəmizdə İslam Oyunları keçiriləndə hər kəs idman zallarında onlarla əlil arabasında fotoqraf, yüzlərlə əlilliyi olan könüllü, yüzlərlə əlilliyi olan tamaşaçı görəcək. Bizim məqsədimiz budur.

***- Cəmiyyətə vermək istədiyiniz hər hansı mesajınız varmı?***

- Mən evində əlil övladı olan valideynlərə səslənirəm, övladlarınızı cəmiyyətdən kənarda saxlamayın, onları evlərdə gizlətməyin.

❑ **Nərgiz LİFTİYEVA**

# Söyüşlü şərhlərə son



**Samir SARI**

**Axırda administratorlar üsyana qalxdılar, dedilər, böylə olmaz, bizi hər gün söyürlər. Ona görə də məcbur olmuşuq ki, saytın şərh-söyüş bölümü donduraq - məsələn, seçki bitənə qədər.**

Aydın məsələdir, seçki ilidir, mandat bölgüsü var, siyasilər və tərəfdarları həyəcanlıdır, umacaqlılar çoxdur, qapışma kampaniyası başa çatana qədər əsəblər tarım olacaq, kobud çıxmaşın, çarpışma, süpürləşmə baş verəcək, söyüşlər havada uçuşacaq, pis sözlər monitorlarda əks-səda verəcək, latayır displeydən göz deşəcək.

Böyük pəstəhanın əlamətləri indidən görünür. Saytımızda gedən materiallara şərh yazanlar bizi ABŞ, Rusiya, Türkiyə, İsrail, İran, İngiltərə və başqa ölkələrin kəşfiyyat orqanlarına işləməkdə suçlayırlar, bunda problem yoxdur, veririk, gedir. Amma bəzi yaramazlar bu ağır ittihamlara bir də söyüş qoşurlar. Şərhi verməyəndə, söyüşü redaktə edəndə isə yeni, etiraz dolu şərhlər yazırlar: “Alçaq administrator, şərhimi niyə vermirsən?”; “Demokratlığınız bura qədərdir, ay E.”; “Sizə kim ixtiyar verib ki, mənim şərhimi redaktə edəsiniz, eyE.” və s.

Beləcə, neçə vaxtdır bir sıra tərbiyəsiz, mədəniyyətsiz oxucularla qırğındayıq. Sayları elə də çox deyil, 15-20 nəfər olarlar. Amma hər mövzuda ekspertdirlər, hər yazıya şərh yazırlar - gündüz saat 10-dan tutmuş gecə saat 24-ə kimi. Mübarizə aparırlar. Savaşırlar.

Adam hərdən quşqulanır ki, bəzi şərh yazanlar sanki şərhyazan vəzifəsində işləyirlər və maaş alırlar. Çünki ola bilməz ki, adam maaş almadığı işə bu qədər məsuliyyətlə, diqqətlə, hətta sevgiylə yanaşsın. Sanki şərh yazmaq həm adamın işidir, həm də hobbisi.

Bir dəfə öz işini vicdanla (eyni zamanda böyük vicdansızlıqla) yerinə yetirən və administratorlarımızın zəhləsini tökən birinin şərhlərini verməyi dayandırdıq, özünə də elan etdik ki, qurtardı, səni işdən çıxarmışıq. Adam çox pis oldu, əsəbiləşdi, bir az da artıq söydü, sonda ürəyimiz yuxaldı, dedik, adamın çörəyinə bais olmayaq, nə qədər olmasa da, vətən oğludur, qoy dolansın. İnsafən, o da bir müddət özünü yaxşı apardı, amma sonradan yenə başı çöndü, görünür, yuxarılardan mövqeyini sərtləşdirməsini tələb etdilər, ya da nəsə bir şey.

Elə şərh yazanlar var ki, müsahibə verənə də söyürlər, müsahibə alana da, müsahibəni redaktə edən redaktora da, məsul katibə də, korrektora da.

Eləsi var, hamıya ağıl verir, savad öyrədir. Bir də görürsən, o cür savadlı şərh yazanın biri yazıda bir hərf səhvi tapıb və götürüb yazıb: “Ay beysavadlar, ”mərhum" sözü heylə yazılır? “Məhrum” yazmalıydınız. Hessad bilmirsiniz. Hamınız baytarlığı qurtarmısız".

Hələ ana dilimizin keşiyində duranların şərhləri də var. Söz yox, bunlar faydalıdır, amma bir az əndazəni aşır, pedantlığa yuvarlanırlar. Məsələn, yazırlar: “Dilimizi zibilləyirsiniz. Bu nədir, elə hey yazırsınız ”öncə", “öncələr”. Qabaqlar “əvvəlcə” deyirdik, yazırdıq, pis olurdu? Türkcələşdirirsiniz dilimizi".

Bəzən cavab veririk ki, axı dilimiz türk dilidir, rus, alman, ingilis, fransız, ərəb, fars, latın dillərindən çoxlu söz alıb işlətdiyimiz kimi, türk dilindəki çoxdan işlətmədiyimiz sözləri də işlədiriksə, nə ziyan var. Bu dəfə qayıdıb pis-pis söyüşlər söyürlər - özü də ya rusca, ya da farsca. Bir dəfə biri hətta ingiliscə söyüş yazmışdı.

Mütəxəssisə qənəşmişik (normalda bu sözə görə də söyüş gəlməlidir), deyir, bəzi insanlar çox aqressivdir, həm də özlərini normal, emosiyasız ifadə etmək mədəniyyətləri yoxdur, ona görə söyürlər. Vaxt keçdikcə düzələcək, guya. Amma nə vaxt? Şərh bölümü açılandan gözləyirik ki, normal şərh yazanlar çoxalacaq, əksinə, azalır. O da niyə? Çünki söyüşlü, ağır sözlü, kəskin ifadəli şərh yazanlar normal şərh yazanları pisikdirir, sıradan çıxarır.

Bu üzdən məcbur olmuşuq ki, bu söyüş tribunasını müvəqqəti bağlayaq. Bunların əlindən qəzetə müsahibə verənlər, yazı yazanlar da azalıb, deyirlər, bir kəlmə söz deyirik, hərə bir tərəfdən tökülüşür üstümüzə.

Ən pis söyüşmənin, yuxarıda dediyimiz kimi, mandat bölüşdürülməsi zamanı baş verəcəyini gözləyirik. Ondan sonra görək nə olur.

**P.S.** *Müəllif bu yazıya söyüşlü şərh yazana söyüş qoyub.*

# Bakıda sürücülər evakuasiya xidmətinin əməkdaşları ilə dalaşdılar

## Orxan Mansurzadə: “Sürücülərin döyülməsi, kiminsə xəsarət alması haqda məlumatlar əsassızdır”





**İyunun 22-də “8-ci kilometr bazarı”nın yaxınlığındakı “Kainat” alış-veriş mərkəzinin önündə evakuasiya xidmətinin əməkdaşları ilə sürücülər arasında əlbəyaxa dava-dalaşla müşayiət olunan insident baş verib.**

Davanın səbəbi ticarət mərkəzinin qarşısında avtomobillərin saxlanılması üçün nəzərdə tutulan meydançadan yol polisinin evakutorlarla avtomobilləri cərimə meydançasına aparmaq istəməsi olub. Sürücülər buna etiraz ediblər. Nəticədə münaqişə yaranıb və əsəbləri tarıma çəkilmiş tərəflər arasında əlbəyaxa dava düşüb. Mülki geyimli evakuasiya xidmətinin əməkdaşları mərkəzin önündə parklanmış “Nissan Sunny” markalı maşını oradan götürmək istəyərkən sürücü əraziyə gəlib. Maşının cərimə meydançasına aparılmasına etiraz edib. Evakuasiya xidmətinin əməkdaşlarından biri etiraz edən sürücünü vurub yerə yıxıb. Onu təpikləyib. Hadisənin şahidi olan sürücülərdən biri bunları deyib: “Sürücü gəldi ki, maşınını evakuatora yükləməyə hazırlaşırlar. Dedi ki, burada dayanmaq olmaz nişanı yoxdur. Əgər burada dayanmaq qadağandırsa, cəriməni yaz, ödəyərəm. Evakuatorun mülki işçisi dedi ki, pul ver, aparmayaq. Sürücü də dedi ki, pulu yoxdur, cəriməni yazın, ödəyərəm. Onu itələyib maşını yükləməyə başladılar. O da qışqır-bağır salıb maşına mindi, sürüb getmək istədi. Qabağını kəsdilər, maşından düşürüb döydülər. Vurub yıxdılar yerə, təpiklədilər. Sürücü özündən getdi”.

**Digər sürücü dedi ki, evakuasiya xidməti əməkdaşını sakitləşdirmək istəyiblər. Lakin onlar mülki geyimli xidmət əməkdaşının zorakılığı ilə üz-üzə qalıblar:** “Bizə də əl-qol atırdı. Biri var, çox qudurğandır, Allahsızdır. Qanun saymır. Danışanda gözləri hədəqəsindən çıxır, elə bil qarşısındakı ermənidir. Bizə də əl-qol atdı, post-patrul çağırdı. Onlar da gəlib aranı sakitləşdirmək istəyən sürücülərin bir neçəsini tutub apardılar”.

Sürücülərdən öyrəndik ki, döyülərək özündən getmiş sürücünü və digər sürücüləri də “Kainat”dakı mağazalardan birinə aparıb qapını bağlayıblar. Əraziyə təcili yardım çağırılıb. Tibbi yardımın həkimləri sürücüyə yardım göstərdikləri müddətdə “Kainat”ın qarşısında sürücülərə qarşı zorakılıq davam edirdi. Onlardan biri ərazidən uzaqlaşmaq istəsə də, post-patrul xidmətinin əməkdaşları vurub onu yerə yıxdılar, sürüyüb maşına qoyub apardılar. Ətrafa çoxlu adamlar yığışmışdı və hadisə yerinə cəlb edilmiş polis qüvvələri tamaşaçıları olay yerindən uzaqlaşdırmağa çalışırdılar.

Evakuasiya xidmətinin əməkdaşları döyülən sürücünün xəstəxanaya aparılmasının qarşısını almağa çalışırdılar, deyirdilər ki, onun vəziyyəti heç də ağır deyil. Həkimlər isə xəstət alanı təcili şəkildə xəstəxanaya aparmağın vacib olduğunu bildirirdilər. Bu dəfə həkim briqadası ilə evakuasiya xidməti işçilərinin arasında mübahisə yarandı. Lakin həkimlər döyülən sürücünü özləri ilə apara bilmədilər. Sonda polislər yaralı sürücünü öz maşınlarına qoyaraq Nizami Rayon Polis İdarəsinin bölmələrindən birinə apardılar.

Nizami RPİ-dən bildirdilər ki, məsələ ilə bağlı protokol tərtib olunub, sürücü sərbəst buraxılıb.

DİN-in mətbuat xidmətinin əməkdaşı Orxan Mansurzadə isə “Yeni Müsavat”a açıqlamasında dedi ki, iyunun 12-də polis əməkdaşları deyilən ərazidə nəqliyyatın sıxlığının aradan qaldırılması məqsədilə tədbirlər həyata keçirib: “Lakin orada sürücülərin döyülməsi, kiminsə xəsarət alması haqda məlumatlar əsassızdır”.

❑ **E.MƏMMƏDƏLİYEV**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 135 (6163) 23 iyun 2015



## Qaradağdaki dəhşətli qətllə bağlı yeni detallar

İki qardaşın ölümündə günahlandırılan şəxsin nümayəndəsindən güllə kimi ittihamlar

**Ötən sayımızda "İki qardaşın qatilini cəzadan yayındırmaq istəyirlər" sərlövhəli yazı dərc etmişdik. Yazıda bu il yanvarın 8-də Qaradağ rayonu, Sahil qəsəbəsində xüsusi amansızlıqla və tamah niyyəti ilə odlu silahla qətlə yetirilən Cavid və Cahid Rəhimovların qətlinin təfərrüatlarından söhbət açılırdı. Qətldə təqsirləndirilərək həbs olunan 1984-cü il təvəllüdlü Zaur Tərlanovun yaxınları redaksiyamıza müraciət edərək baş vermiş olayla bağlı mövqelərini açıqlayıblar. Z.Tərlanovun atası Ənvər Tərlanov və cinayət işi üzrə zərərçəkmiş qismində tanınan Xanım Aslanovanın qanuni nümayəndəsi Bəxtiyar Məmmədov olayın heç də qarşı tərəfin iddia etdiyi motiv əsasında baş vermədiyini söyləyib: "Cinayət işi üzrə zərərçəkmiş qismində tanınan Nigar Rəhimova və onun vəkili Ceyhun Yusifov ictimaiyyəti çaşdırmaq niyyəti güdürlər. Qətlin heç bir əsas və səbəb olmadan baş verdiyini ictimailəşdirməklə təqsirləndirilən şəxsi və real istintaq aparan prokurorluq orqanlarını günahlandırırlar. Əslində isə belə deyil.**

İstintaqla, həm də apardığım araşdırmalardan və dinlədiyim müxtəlif insanlardan mənə məlum oldu ki, hadisə baş verən gün Zaur Tərlanov Sahil qəsəbəsində yerləşən cayxanaların birində olan zaman Cavid və Cahid Rəhimovlar ora gəliblər. Z.Tərlanovu ictimaiyyətin gözü qarşısında nalayiq söyüşlərlə təhqir edib, sonda isə onlarla getməsini tələb ediblər. Qətl hadisəsi baş verən zaman isə hadisə yerinə yaxınlıqda xidmət aparan post-patrul əməkdaşlarının gəlməsi ona sübutdur ki, qətl hadisəsi heç bir tamah məqsədi güdülmədən baş verib. Qətlə yetirilənlərin hətta üzərində 6 min 100 manat olsaydı belə vaxt məhdudiyyətindən irəli gələrək həmin şəxslərin üzərinə Zaur Tərlanov tərəfindən tamah məqsədilə baxış keçirmək imkanı ola bilməzdi. Hadisə yerinə baxış zamanı da nə hadisə yerindən, nə də ki Cavid və Cahid Rəhimovların meyitlərinin üzərində qeyd olunan pul aşkarlanmayıb.

Odur ki, Nigar Rəhimova və vəkilinin söylədikləri ağ yalandır. Bildirirəm ki, Zaur Tərlanovun heç bir cinayət aləmi ilə əlaqəsi yoxdur, belədə hansı nüfuz üstünlüyündən söhbət gedə bilər? Sadəcə olaraq, Cavid və Cahid Rəhimov qardaşlarının uzun müddət ərzində mütəmadi olaraq Zaur Tərlanova, onun bütün ailə üzvlərinə müxtəlif yollarla etdiyi təzyiqlərdən, nalayiq sözlərlə təhqir olunması ucbatından qətl hadisəsi baş verib.

Aparılan istintaq hərəkətləri ilə də sübuta yetirilmişdir ki, Cavid və Cahid Rəhimov qardaşları qətl hadisəsinin törənməsində, baş verməsində özləri təhrikçi olublar və onların Zaur Tərlanovu çayxanadan dəniz kənarına aparmaqda məqsədləri qətlə yetirmək olub. Buna Rəhimov qardaşları üzərindən aşkar olmuş soyuq silah - bıçaq da sübutdur. Sadəcə olaraq, Zaur Tərlanov düşdüyü durumdan, çətin vəziyyətdən ov etmək məqsədilə qanuni qeydiyyatdan keçmiş, hadisə baş verən zaman özünə məxsus maşınında olan "Vinçester" markalı ov tüfəngindən atəş açmaqla özünü qorumaq məqsədini güdüb".

**Nümayəndə deyir ki, sadəcə olaraq, yaxın məsafədən açılan atəş hər iki şəxsin ölümünə səbəb olub:** "Apardığım araşdırmalardan mənə məlum oldu ki, Rəhimovlar müxtəlif vaxtlarda, hətta açıq şəkildə belə "Makarov" tipli odlu silah gəzdiriblər və bundan xəbərdar olan Zaur Tərlanov onlar tərəfindən dəniz kənarına aparılan zaman təşviş düşərək qətl hadisəsini törədib. Əgər həmin silah istintaq orqanları tərəfindən araşdırılaraq əldə olunarsa, Rəhimov qardaşlarının hətta bir çox cinayət hadisələri törətmələri sübuta yetər. Digər araşdırmalarla mənə məlum olub ki, Rəhimov qardaşları anaları Nigar Rəhimovla birlikdə uzun illər müxtəlif vaxtlarda müxtəlif insanlara faiz müqabilində borc pullar verməklə məşğul olublar. Borclarını vaxtında ödəyə bilməyən insanlara qarşı müxtəlif üsullarla təzyiqlər ediblər, buna dözməyən Qaradağ rayon sakini olan Zeynəb adlı bir qadın sonda özünü asmaqla intihar edib, digər bir Yeganə adlı qadın isə Rəhimovların təzyiqlərinə tab gətirməyərək sonda özünü yandırıb və intihar edib. Başqa bir Fatma adlı qadın isə gəlininin Rəhimovlardan faizlə borc götürməsindən xəbərdar olandan sonra özünü yandırıb və ölüb. Rəhimovların hazırkı mərhələdə mətbuata üz tutmaları da bu məsələlərdən diqqətin yayındırılmasına xidmət edir".

**Nümayəndə deyir ki, istintaq zamanı Z.Tərlanovun X.Aslanovaya qarşı hər hansı bir təzyiqinin olması sübuta yetməyib:** "Nigar Rəhimovanın söylədikləri yalandır. Əgər elə bir hadisə baş vermiş olsaydı Xanım Aslanova Nigar Rəhimovaya deyil, öz valideynlərinə və yaxud da polis orqanlarına müraciət edərdi".

❑ E.HÜSEYNOV

# Cəmiyyətdə SOS siqnalı - analar niyə vəhşiləşir?

Sosioloqlar bildirirlər ki, psixoloji və psixiatrik problemlərin miqyası artır, texnologiyanın inkişafı insanlarda məmnunluq hissini sıfıra endirir və yaşamı çətinləşdirir...

**Son bir ayda ölkədə iki ananın öz övladlarını öldürməsi kimi dəhşətli hadisə yaşanıb. Son olaraq bir neçə gün əvvəl Gəncədə dəhşətli qətl hadisəsi baş verib. Gəncənin "Beş yol" adlanan ərazisində yaşayış evində biri 1, digəri 3 yaşlı olmaqla iki uşağın başı kəsilib. Daxili İşlər Nazirliyinin (DİN) məlumatına görə, şəhər sakini Ramal Əliyevin yaşadığı mənzildə naməlum şəxsin onun iki azyaşlı övladını bıçaqla qətlə yetirməsi barədə məlumat araşdırılarkən ortaya dəhşətli fakt çıxıb. Cinayətin sırf ailə-məişət münaqişəsi zəminində Ramal Əliyevin həyat yoldaşı, yəni uşaqların doğma anası olan Sədaqət Babayeva tərəfindən törədilməsi müəyyən edilib. Qadın ilkin ifadəsində törətdiyi cinayəti tam etiraf edib.**



İyunun əvvəlində isə Bakının Sabunçu rayonunda 27 yaşlı ana iki övladını öldürüb, özünə də intihar məqsədilə xəsarət yetirib. 1988-ci il təvəllüdlü Nəsibə Nəsib qızı Quliyeva evdə tək olarkən iki körpə balasını boğub öldürüb. Qadın daha sonra öz ürəyinə bıçaqla zərbə yetirib. O, 2012-ci il təvəllüdlü Ayan Asif qızı Məlikzadəni və 10 aylıq körpəsi Ayşəni öldürdükdən sonra məktub yazaraq intihara cəhd edib.

Ötən ilin dekabrında isə Lənkəran rayonunda 1990-cı il təvəllüdlü Sevinc Bayramova 2012-ci ildə anadan olmuş oğlu Məhəmməd Bayramovu boğaraq öldürmüşdü.

**Ekspertlər anaların bu hərəkətlərinin səbəblərini izah etməyə çalışırlar. Psixologiya və Konsultasiya Mərkəzinin psixoloqu Elnur Rüstəmov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində cəmiyyətdə psixoloji və psixiatrik problemlərin miqyası artmaqdadır:** "Bu gün insanlar psixoloji problemlərdən çox əziyyət çəkirlər. Heç bir ana, ata övladına durduğu yerdə xəsarət yetirməz. Ümumiyyətlə, bir insan durduğu yerdə insana xəsarət yetirməz. Düşünürəm ki, bu ana ilə bağlı məhkəmə tibbi ekspertizası aparılacaq. Güman ki, ana psixoloji problemlər yaşayıb və bu səbəbdən iki uşağına qarşı bu cür dəhşətli bir cinayət törədib, onların başını kəsib. Məsələ burasındadır ki, insanlarımız psixoloji sağlamlığının qeydinə qalmırlar. Çünki bir insanın dişi ağrıyanda səhər olmasa da, o biri gün həkimə müraciət edir. Ancaq bir insanın psixoloji rahatsızlığı olanda sabah, biri gün gedərəm deyib, bəzən illərlə həkimə getməyini təxirə salır. Seans prosesində insanlardan soruşuruq ki, neçə vaxtdır həkimə gəlməyi fikirləşirsiniz? Biri deyir 3 il, biri deyir 2 il. Yəni insanlar həmişə fikirləşirlər ki, bu, düzələr. Problem ortadan qalxacaq, həll olunacaq və sair. Əslində həll olunmur, daha da dərinləşir. Problem yeni problemlərə yol açır. Böyük ehtimalla, bu olayda ananın psixoloji problemi var. Bir şeyi də nəzərə alın ki, bəzən analarda hamiləlikdən sonra psixoloji və psixiatrik narahatlıqlar arta bilər. Hamiləlik dönəmində bu, daha çox baş verir. Bunlar ətrafdakı insanlar tərəfindən diqqətə alınmalıdır. Bu gün insanın psixikasına təsir göstərən çoxlu faktorlar var və bunlardan ən birincisi internetdir deyə bilərik. Yaxud mobil telefonlar da həmçinin. Yəni texnologiyanın inkişafı insanlarda məmnunluq hissini sıfıra endirir. Sağlam adam da bir də görürsən ki, dəli olmaqdan qorxur. Sürət əsrində yaşamağımız insanların psixoloji durumuna çox böyük təsirini göstərir. Ona görə də çox yaxşı olardı ki, insanlarımız fiziki sağlamlığı ilə yanaşı, psixoloji sağlamlığının da qeydinə qalsınlar. Bunun üçün hamının psixoloq yanına getməsinə gərək yoxdur. Ən azından, çıx təbiət qoynunda, bir vaxt keçir. Ən azından get ailənlə vaxt keçir, zövq al. Uşaqla zaman keçir. Bu gün valideyn uşaqla məşğul olmaq istəmir. Bu gün ailədə sanki iki yabançı bir evdə qalır, iki yad adam bir evdə yaşayır. Bunlar həllini tapmalıdır. O zaman bu cür problemlər də az olacaq. İndi biz baş verən cinayət hadisəsinə münasibət bildirib bunu deyirik. Ancaq istintaq prosesində düşünürəm ki, orada çox məqamlar ortaya çıxacaq. Heçdən bir ana durub öz uşağını öldürməz. Ananın ata ilə münasibətini araşdırmaq lazımdır. Genetik faktoru araşdırmaq lazımdır ki, ananın nəslində bu cür problem olan adam olubmu? Anada problemlər hamiləlikdən qabaq, yoxsa sonra baş verib? Ya hansı hadisədən sonra baş verib. Bu, həm araşdırma, həm də maariflənmə işi olardı".

**Psixoloq Dəyanət Rzayev də bildirir ki, bu cür qətllər törədən analarda psixi pozuntu əlamətləri var:** "Ruhi xəstə və əsəb xəstəsi tamam başqa diaqnozlardır. İnsan əsəbi ola bilər, lakin bu onun ruhi xəstə olması demək deyil. Əgər Azərbaycanda normal psixoloji xidmət olsa idi, sahə müvəkkilləri, sahə həkimlərinin ailələrdəki xəstələrlə bağlı məlumatları olsa idi, həmin sahədəki qətllərin, bu cür hadisələrin qarşısını almaq mümkün olardı".

**"Təmiz dünya" İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova isə interpress.az-a bildirib ki, Gəncədə ananın iki övladından birini öldürməsi, ikincini isə ağır yaralaması qətiyyən Azərbaycan xanımının davranışına xas deyil:** "Azərbaycan qadını deyəndə ilk növbədə övladına görə özünü ölümə verən fədakar ana obrazı canlanır. Bu hadisədə bəlli olmayan səbəblər var. Qatilə bəraət qazandırmağın mümkünlüyünü hesab etmirəm. Lakin məhkəmə-tibbi ekspertizası, eləcə də sosial iş sahəsində ixtisaslaşan şəxslər hadisədən əvvəl baş verən proseslərin araşdırmalıdır". **Mehriban Zeynalovanın sözlərinə görə, artıq 2-ci olan bu hadisə SOS-dur:** "Hadisə törədilənə qədər bu insanın dünyagörüşü, ailə münasibətləri, psixi vəziyyəti, dini baxışları, əri tərəfindən hansısa zorakılığın olub-olmaması, qayınana-qayınata münasibətləri, bir sözlə, hər şey araşdırılmalıdır. Çünki bu, Azərbaycan üçün sıradan bir hadisə deyil. Bu artıq SOS-dur. Əgər hadisə soyuqqanlı törədilibsə, onda ehtimallar müxtəlif ola bilər. İstintaq getdiyi üçün hansısa ehtimalı irəli sürüb çaşqınlıq yaratmaq istəmirəm. Amma burda 2 aspekt mümkündür-soyuqqanlı həyata keçirilən qətl və ya affekt vəziyyətinə çatdırma nəticəsində baş verən qətl. Əgər hadisə birinci ehtimalla bağlıdırsa, o zaman bu, geniş araşdırılmalıdır".

**Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə isə qeyd edib ki, övladlarını öldürən qadının ruhi xətə olması haqqında hər hansı rəsmi sənəd olmadığından, qanunvericilik həmin şəxslərə qarşı tədbir görə bilmir:** "Bu, çox dəhşətli haldır. Bu hadisə qarşısında söz tapa bilmirəm. Ruhi xəstələrin dünyaya uşaq gətirməsi düzgün deyil. Bu gün Azərbaycan reallığı odur ki, ailələr ruhi xəstə olan övladlarının qeydiyyata alınmasını belə istəmirlər, bunu cəmiyyətdən gizlədirlər. Mütləq bu prosesə nəzarət olmalıdır, sosial nəzarət həyata keçirilməlidir".

Hüquqşünaslar isə bildirirlər ki, Azərbaycan qanunvericiliyi ilə əsəb xəstələri, ruhi xəstələr valideynlik hüququndan məhrum edilmir. Qanunvericiliyə görə, yalnız onların fəaliyyət qabiliyyəti məhdudlaşdırılır. Ailə Məcəlləsinə görə, ruhi xəstə olan şəxslər nikah münasibətlərinə daxil ola bilməzlər. Ancaq nikaha daxil olub, sonradan ruhi xəstəliyə tutulubsa, onun valideynlik hüquqlarından məhrum edilməsi ilə bağlı qanunvericilikdə hər hansı müddəa yoxdur. Ruhi xəstə ilə bir evdə yaşayan şəxslərin həyatına hər hansı bir təhlükə varsa, qanunla həmin şəxslər cəmiyyətdən təcrid olunmalıdırlar və xüsusi müəssisələrdə yerləşdirilməlidirlər. Əgər onlar cəmiyyətdən təcrid edilməzsə, birgə yaşadıqları insanların həyatına təhlükə törədə bilərlər. Ruhi xəstələr vaxtında cəmiyyətdən təcrid edilmədikdə bu cür bədbəxt hadisələr baş verir.

❑ Röya RƏFİYEVA

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 135 (6163) 23 iyun 2015





# Makkeynin xəbərdarlığı, Sobyaninin vədi: Qarabağı nə gözləyir?

## Azərbaycanın siyasi ekspertləri həm ABŞ, həm də Rusiyadan gələn mesajlara sərt reaksiya verdilər

**Dünyanın iri paytaxtlarından növbəti dəfə Azərbaycanla bağlı xəbərdarlıqlar və mesajlar gəlməkdədir. Özü də diqqətçəkən budur ki, Azərbaycanın əsas problemi olan Qarabağ münaqişəsinin tənzimlənməsi barədə açıqlamalar əsasən həmsədr ölkələrin müxtəlif səviyyəli şəxslərindən gəlir.**

Ötən həftə fransalı keçmiş həmsədr Jak For iddia etmişdi ki, Qarabağın Azərbaycanın bir hissəsi olması artıq qeyri-mümkündür. Bunun ardınca Moskvadan Azərbaycana Qarabağ mesajı verildi. Rusiyalı hərbi ekspert Aleksandr Sobyanin erməni portalına müsahibəsində bildirib ki, Azərbaycan Avrasiya İqtisadi Birliyinin üzvü olandan sonra Dağlıq Qarabağ məsələsinin həlli mümkün ola bilər. Onun sözlərinə görə, Rusiya Qarabağ münaqişəsini hərbi yolla həll etmək imkanına malik deyil. "Rusiya üçün müharibə - yasaqlanmış üsuldur. Biz 2008-ci il avqustun 8-dək Gürcüstanın ərazi bütövlüyünü tanıyırdıq. Ancaq Tiflisin Cənubi Osetiyaya birbaşa müdaxiləsindən sonra hər şey dəyişdi. İstənilən halda müharibənin təzədən qızışması Moskva üçün yolverilməzdir, çünki sən başqa fikirdə, düşmən münasibətlərdə ola bilərsən, ancaq insanları öldürməyə haqqın yoxdur" - deyib ekspert. Musavat.com xəbər verir ki, Sobyaninin fikrincə, Türkiyə NATO üzvü olduğu üçün Azərbaycanla strateji müttəfiqlikdən ötrü alyansın bütün üzvlərinin razılığını almalıdır: "Rusiya isə həm Türkiyə, həm də Azərbaycanla əməkdaşlıq qurub. Ancaq Kremlin strateji əməkdaşlığı yalnız Ermənistanladır. Və istisna deyil ki, müharibə variantında Rusiya KTMT çərçivəsində müdaxilə eləsin".

Bu fikirlər müstəqil təhlilçiyə məxsus olsa da, şübhə yoxdur ki, mesajlar həm də Kremlin iradəsinin inikasıdır. Bir neçə gün öncə Putin hakimiyyətinin danışan dili Aleksandr Duqin də Azərbaycanı öncə Avrasiya Birliyinə qoşulmağa çağırmışdı. Bu mənada hesab olunur ki, ekspertlər səviyyəsində dilə gətirilən bu fikirlərin arxasında Rusiyanın siyasəti dayanır.

**Bu arada amerikalı senator Con Makkeynin də Rusiya təhlükəsindən bəhs etməsi diqqət çəkir və şimaldan gələn mesajların təsadüfi olmadığına şübhə yeri qoymur. Azərbaycanın hüquq müdafiəçisi Əhməd Şahidovun sualına cavabında senator bildirib ki, Ermənistanla bağlı durum məlumdur. Bu ölkə Rusiyadan tam asılıdır:** "O ki qaldı Azərbaycana, təəssüflə bildirməliyəm ki, Putinin növbəti hədəfi Azərbaycandır və biz bunu gözləyirik. Dağlıq Qarabağ münaqişəsi barədə isə onu deyə bilərəm ki, tərəflər özləri münaqişəni həll etməli və yaxınlıq göstərməlidirlər. ABŞ olaraq, biz sülh naminə atılan istənilən addımı alqışlayırıq".

Avropa Oyunlarından sonra bölgədə yeni bir situasiyanın yaranacağı ilə bağlı xeyli xəbərlər dolaşır. Hətta oyunlardan sonra Azərbaycanın öz torpaqlarını azad etmək üçün hərbi əməliyyatlara qərar verəcəyi barədə də çoxsaylı iddialar var. Azərbaycanın bugünlərdə Rusiyadan daha 100 T 90 S tankını almasından bəhs edən xarici media savaşın yaxında olduğunu iddia edir. Bundan az öncə Azərbaycanın hərbi əməliyyatlara başlamasına böyük güclərin razılıq verdiyi iddiaları da yayılmışdı.

**Siyasi şərhçi Elxan Mehdiyev deyir senator Con Makkeyn burada da sona qədər səmimi deyil:** "O, Rusiya ilə bağlı hər zaman ağ-qara danışsa da, erməni işğalı ilə bağlı yenə də susur. Çünki öz maraqları buna imkan vermir. Düşmənin başını sığallayıb "öz aranızda dil tapın" deməklə normal münasibətdə olan qonşunu düşmən göstərmək bölgədəki reallığı əks etdirmir və Azərbaycana da faydası yoxdur. Rusiya ilə Azərbaycan arasında normal münasibətlərin davam etdirilməsi indiki dönəmdə Azərbaycan üçün daha çox əhəmiyyət kəsb edir".

**Yeri gəlmişkən, ötən həftə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sədri Nikolay Bordyujaya erməni jurnalistin Moskva-Bakı əməkdaşlığı ilə bağlı sualına kəskin reaksiya vermişdi və bu da Moskva tərəfindən Ermənistana sərt şapalaq kimi dəyərləndirildi. E.Mehdiyev "Yeni Müsavat"a dedi ki, əslində Rusiyanın Azərbaycana hər dəfə silah satması erməniləri narahat edir:** "Azərbaycan müasir silah aldıqca, ermənilərin torpaqları işğalda saxlaması daha kövrək hala düşür. Onlar da təbii ki, Azərbaycanı hərbi baxımdan zəif durumda görmək istəyirlər. Bordyuja müəyyən dərəcədə həqiqəti söyləyib. O, Ermənistana verilən silahların Azərbaycana satılan silahlardan artıq olduğunu açıqlayıb. Azərbaycan-Rusiya silah alışı üzrə istənilən anlaşma Rusiya ordusu Baş Qərargahında verilən rəydən sonra qüvvəyə minir və onlar ən yaxşı halda, Bordyujanın dediyi kimi, balansı qorumaq şərtilə müsbət rəy verirlər. Azərbaycana hücum



**Elxan Mehdiyev:** ""Azərbaycan Avrasiya Birliyinin üzvü olandan sonra Qarabağ məsələsi həll oluna bilər" fikri baş aldatmaqdır..."



**Elxan Şahinoğlu:** "Makkeyn Krım və Donbası birmənalı Ukrayna ərazisi saydığı halda bircə kəlmə demir ki, "Dağlıq Qarabağ Azərbaycan ərazisidir..."

silahı satılırsa, əvəzində Ermənistana o silahlara müdafiə sistemləri verilir. Rusiyanın Ermənistana verdiyi müasir və texnoloji cəhətdən qabaqcıl silahların böyük bir qismi Qəbələ RLS Azərbaycandan çıxandan sonra verildi və bəlkə də Azərbaycanın indiyə kimi aldıqları silahlar ermənilərin aldıqları silahlardan hələ də balanslaşdırmayıb. Əsasən də erməni tərəfinə orta mənzilli raket sisteminin verilməsi Azərbaycana qarşı ən böyük təhlükə yaradıb, çünki onlar Bakıya qədər çata bilən raketlərdir. İkincisi, Azərbaycan təyyarələrinin say üstünlüyünə cavab olaraq S-300-lərin Gümrüdəki Rusiya bazasından çıxarıb Ermənistana verilməklə Gorus-Qafan sərhədində yerləşdirilməsi işğal edilmiş ərazilərdə hava hücumundan müdafiə sistemini üst düzeydə təmin edib. Artilleriya və tank sistemləri də say baxımından Azərbaycanın arsenalını aşır. Bu baxımdan, erməni tərəfi balansın olmasını yox, Azərbaycanın 2-3 dəfə zəif olmasını istəyir. Narahatlığın səbəbi budur".

**Ekspertin sözlərinə görə, Azərbaycanın indiki - Qərb dünyası ilə üz-üzə qaldığı bir dövrdə Rusiya ilə münasibətlərinin inkişafının perspektivi daha böyükdür və indiki tendensiya daha da yaxınlaşmağa aparır:** "Bunun torpaqların azad edilməsinə aparacaq sualına cavab aydın deyil, çünki Rusiya açıq surətdə ermənilərin işğal etdikləri torpaqlardan çıxmalarını tələb etmir, bəlkə sakit diplomatiya aparır, ona da əmin deyiləm. Bəlkə Azərbaycanın hara qədər Rusiya ilə addımlayacağını gözləyir, bu da dəyişən dünyada qeyri-müəyyənliyə aparan yanaşmadır. Çünki 1997-ci ildə bəlkə də ilk dəfə prezident Yeltsin Heydər Əliyevlə Moskva görüşündə "Heydər Əliyev Dağlıq Qarabağa muxtariyyət verməyə hazırdır, onlar isə biz daha böyük status istəyirik deyirlər" dedi və sonra dönüb rişxəndlə "ABŞ-ın statusunu istəyirlər-nədi?"- dedi. Primakovun bu işlə hər gün məşğul olacağını açıq söyləsə də, sonu nə oldu məlumdur. Bu baxımdan, mən daha çox Rusiyadan nəticə gözləsəm də, hələlik Moskvanın yanaşmasında köklü dəyişiklik görmədiyimdən, proseslərə nikbinliklə baxmıram".

**E.Mehdiyev Sobyaninin dediklərinə də reaksiya verdi:** "Azərbaycan Avrasiya İqtisadi Birliyinin üzvü olandan sonra Dağlıq Qarabağ məsələsinin həlli mümkün ola bilər" fikri, yumşaq desək, boş danışıqdır və baş aldatmaqdır. Hər halda, indi Azərbaycan cəmiyyətinin bu işlərdə daha çox təcrübəsi var, nəinki Sobyaninin. Heç kim Moskvanın hərbi əməliyyatlara girməsini xahiş etmir və tələb etmir. Əgər Moskva Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət edirsə, o, erməni tərəfinə işğalın davam etməsinə kömək edən hərbi və siyasi dəstəyi durdurmalı və işğalı bitirməsini açıq dillə söyləməlidir. O zaman hər kəs Moskvanın sülhpərvər və səmimi olduğunu qəbul edəcək və Rusiyanın nüfuzu da həqiqətən böyük olacaq. İkincisi, onun sözləri təbliğat və basqı xarakteri daşıyır və Rusiyanın Donbasdakı hərbi müdaxiləsi ilə heç uyğun gəlmir".

**Politoloq Elxan Şahinoğlu isə qəzetimizə bildirdi ki, Rusiya hakimiyyəti və Kremlə yaxın ekspertlər bizi tora salmaq istəyirlər:** "Deyirlər ki, əvvəlcə Azərbaycan Avrasiya İqtisadi Birliyinə daxil olsun, bundan sonra Moskva Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirəcək. Əslində birincisi, bununla etiraf edirlər ki, münaqişənin həllinin açarı əllərindədir, sadəcə, istifadə etməyə həvəsləri yoxdur. İkincisi isə kim zəmanət verə bilər ki, Azərbaycan Avrasiya Birliyinə daxil olduqdan sonra Moskva bu münaqişəni həll edəcək? Üzv olacağıq, sonra da deyəcəklər ki, bilirsiniz, bu, çətin münaqişədir, həllinə vaxt lazımdır. Azərbaycan Moskvanın istəyi ilə vaxtilə Müstəqil Dövlətlər Birliyinə daxil oldu. Məgər bu üzvlük Rusiya hakimiyyətini münaqişənin həllinə həvəsləndirdimi? Əksinə, bu dəfə birinci addımı Rusiya atmalıdır. Qoy Moskva Ermənistan hakimiyyətinə təsir edib işğal altındakı bütün torpaqlarımızı boşaltdırsın, ədalətli sülh müqaviləsi imzalansın, bununla xoş niyyətli olduğunu ortaya qoysun, ondan sonra Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzvlüyü reallaşa bilər".

**E.Şahinoğlu deyir ki, hətta 2 rayonun azad olunmasının qarşılığında da Azərbaycan Avrasiya İqtisadi Birliyinə üzvlüklə bağlı risk etməməlidir:** "Rusiya 2 rayonu azad edəcək, sonra da Dağlıq Qarabağda referendum keçirilməsini tələb edəcək. Yəni kobud desək, bir neçə rayonun azad olunması müqabilində Dağlıq Qarabağın, üstəgəl Şuşa, Kəlbəcər və Laçının itirilməsi ilə barışmalıyıq. Buna Azərbaycanda heç bir hakimiyyət razılaşmaz".

**Senator Makkeynin fikirlərini şərh edən politoloqun sözlərinə görə, təəssüf ki, Amerikalı rəsmilərin və siyasətçilərin də Qarabağla bağlı mövqeyində dəyişən bir şey yoxdur:** "Bu mənada ABŞ Rusiyadan "uzağa getməyib". Senator Con Makkeyn Rusiyanın qatı düşməni, Ukraynanın ən yaxın dostudur. O, Ukraynadan sonra Rusiyanın Azərbaycanı təhdid edəcəyini söyləyib. Makkeyn onu da etiraf edib ki, Azərbaycandan fərqli olaraq Ermənistan Rusiyanın təsiri altındadır. Belə olan halda Rusiya əleyhdarı olan senator Azərbaycanı dəstəkləyən bəyanat verməli əvəzinə deyir ki, tərəflər özləri Dağlıq Qarabağ münaqişəsini həll etməlidir. Makkeyn Ukraynanın ərazi bütövlüyünü vurğuladığı, Krım və Donbası birmənalı Ukrayna ərazisi saydığı halda bircə kəlmə demir ki, "Dağlıq Qarabağ Azərbaycan ərazisidir və münaqişənin həlli bu çərçivədə mümkündür". Və ya ABŞ-ın Macarıstandakı keçmiş səfiri xatirələrində yazıb ki, Makkeyn bu ölkənin rəsmi qurumlarını Ramil Səfərovu Azərbaycana təhvil verdiyinə görə qınayıb. Amerikalıların bu cür yanaşmalarının nəticəsidir ki, ABŞ-ın Azərbaycan ictimaiyyətində nüfuzu azalıb. Bəli, rəsmi Bakı ilə Vaşinqton arasında münasibətlər soyuqdur, ancaq Azərbaycan ictimaiyyətinin Amerikanın regional siyasətindən razı qaldığını söyləmək çətindir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Qarpız yemək vaxtı yetişibmi?

## Azad İstehlakçılar Birliyinin sədri: "Satışda olan qarpızların əksəriyyəti GMO məhsuludur"

## Adil Qeybulla: "Sulu tərəvəz və bostan bitkiləri kəsildikdən dərhal sonra istifadə olunmalıdır"



**Yay mövsümü başlayanda daha çox yeyilən bostan bitkilərindən biri də qarpızdır. Azərbaycanda qarpızın təbii yetişmə vaxtı avqust ayı olsa da bizə yaxın Orta Asiya ölkələrinin yay iqlimi quraq və isti olduğundan qarpız və yemiş həmin ölkələrdə daha tez yetişir və satışa çıxarılır. Qarpızın kütləvi satışı isə iyunun əvvəllərindən başlayır.**

Mütəxəssislər iyunda yeyilən qarpızın insan səhhəti üçün zərərli olduğunu bildirir. Qarpızların həm qiymətləri, həm də satışı ilə maraqlanmaq üçün bazarlara və marketlərə baş çəkdik.

"Yaşıl bazar"da xeyli qarpız satılırdı. Qiymətləri də əvvəlki günlərə baxanda cüzi də olsa ucuzlaşmışdı. Bir həftə əvvələ qədər kilosu 3 manata satılan qarpız indi 2 manata, 2 manat 50 qəpiyə satılırdı. Alıcısının olub-olmadığına gəlincə, "Yaşıl bazar"dakı qarpız satıcısı Vahid Yusifov son vaxtlar alıcıların çoxaldığını dedi: "Çox insanlar hələ qarpız almağa çəkinir. Mən onları qınamıram. Qarpız zəhərlənməsi pis olur. Amma bu qarpızlar pis deyil. Alanlardan gəlib hələ ki narazılıq edən olmayıb".

**Uzun illərdir qarpız becərdiyini və satdığını deyən digər satıcı Vüqar Əhmədov isə qarpız düzgün yetişdirilərsə, onu istənilən vaxt yeməyin mümkün olduğunu dedi:** "Qarpız çox həssas bostan meyvəsidir. Buna görə də onun becərilmə qaydalarında yanlışlığa yol verdikdə bu, zəhərlənməyə səbəb ola bilir. Qarpız əkilən yer mütləq bir neçə dəfə şumlanmalı, oradakı alaq otları yaxşıca təmizlənməlidir. Çünki qarpız ətrafında olan bitkilərin suyunu mənimsəyir. Ona görə də çalışmaq lazımdır ki, qarpızın əkildiyi yerin yaxınlığında zəhərli və zərərli bitkilər olmasın. Qarpıza verilən su da təmiz olmalıdır. Əgər bu qaydalara riayət edilərsə, həmin qarpızın insan səhhətinə heç bir zərəri olmaz".

Qarpızın hazırda satılması məsələsinə alıcıların da münasibətini aldıq. Bir sıra alıcılar qarpızı artıq daddıqlarını və heç bir şikayətləri olmadığını desələr də, əksəriyyət alıcı hələ ki qarpız yeməyə risk etmədiyini deyirdi. Onlar indi satılan qarpızların zəhərli olduğunu düşünür və qarpızı öz təbii yetişmə vaxtında iyul-avqust aylarında alacaqlarını deyirdilər.

Əgər qarpızın iyun ayında yeyilməsi zərərlidirsə, niyə onun satışının qarşısı alınmır?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov satışda olan qarpızların əksəriyyətinin GMO məhsulu olduğunu bildirdi: "Satışda olan qarpızların əksəriyyəti Genetik Modifikasiya Olunmuş (GMO) qarpızlardır. Bunun ən parlaq sübutlarından biri həmin qarpızların tumunu növbəti ilə əkəndə yetişməməsidir. Bu qarpızlar həm də istixanalarda yetişdirilən qarpızlardır. Demək olar ki, bu qarpızları kütləvi şəkildə yoxlayan, normal ekspertiza edən heç bir qurum yoxdur. Kimin ürəyi harada necə istəyir elə də qarpızını satır. Yaxşı olar ki, Kənd Təsərrüfatı Nazirliyinin bahalı qiymətə aldığı yeriyən laboratoriyaları, ekspertizaları camaatın əziyyətlə gətirib bazara çıxartdıqlarını yox, gedib yerlərində yoxlasınlar. Etiraf etmək lazımdır ki, bu sahədə böyük boşluq var".

**Qurum sədri qarpızların hamısına pisdir deməyin də düzgün olmadığını dedi:** "Satışda olan qarpızlar ola bilsin ki, təhlükəli olmasın. Yəni bu qarpızlara əziyyət çəkilib parnikdə yetişdirilib. Bu o demək deyil ki, satışa çıxarılan qarpızların hamısı pisdir. Ciddi yoxlanılma getmir. Kənd Təsərrüfatı Nazirliyi bu işlə ciddi məşğul olmalıdır".



Maraqlıdır, qarpızın köhnə və zəhərli olduğunu necə bilmək olar?

Mütəxəssislərə görə, normadan artıq nitrat qəbul edən qarpızların rəngi sarımtıl olur. Onun tərkibində ağ, sarı zoğların çoxluğu da nitratın normadan artıq olmasından xəbər verir. Nitrat orqanizm üçün zəhərlidir. Hansı orqanizmdə problem yoxdur, o, gübrəli qarpızı mənimsəyə bilir. Orqanizmi zəif olanlarda isə zəhərlənmələrə gətirir. Axşamdan kəsilmiş və sonra soyuducuya qoyulmuş qarpız da zəhərlənmə ehtimalını artırır. Zəhərlənmələrin baş vermə ehtimallarını azaltmaq üçün qarpız kəsildikdə onun baş hissəsi atılmalıdır. Çünki zəhərli maddələrin qalıqları oraya toplanır.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla zəhərlənmələrin baş verməməsi üçün meyvə-tərəvəzləri yetişmə vaxtında yeməyin daha məsləhətli olduğunu dedi:** "Meyvə-tərəvəzdən zəhərlənmə halları yay vaxtı çox olur. İnsanlar bu cür zəhərlənmələrdən qorunmaq üçün meyvə- tərəvəzləri vaxtında qəbul etməlidir. Yəni vaxtından əvvəl parniklərdə süni surətdə yetişdirilən meyvə-tərəvəzlərdən mümkün qədər az istifadə etmək lazımdır. Su tutumu yüksək olan meyvələrin, o cümlədən də qarpız, pomidorda zərərli maddələr, gübrələr toplanıb qalıb. Bu da insanın orqanizminə düşdükdə zəhərlənmələrə səbəb olur. İçində uzun zoğu olan meyvələr onu göstərir ki, onun tərkibində müəyyən miqdarda toksidi tərkibi olan birləşmələr toplanıb. Vaxtı keçmiş, çürümə baş vermiş meyvələrdən istifadə etməmək məqsədəuyğundur. Meyvənin üzərində elə də bilinmir, amma daxilində müəyyən çürümə, xarab olma prosesləri gedir. Həmin müddətdə isə artıq mikroorqanizmlər orada toplanır və artır. Bu cür dad keyfiyyətlərini itirmiş, rəngi dəyişmiş, təzəliyi hiss olunmayan meyvələrdən istifadə etmək məqsədəuyğun deyil. Məsələn, qarpız, pomidor kimi sulu tərəvəz və bostan bitkiləri kəsildikdən dərhal sonra istifadə olunmalıdır. Onu saxlamaq məqsədəuyğun deyil. Yəni saxlanılanda bu qidalar soyuducudan və digər yerlərdən özünə müxtəlif maddələr hopdurur. Bu da həm keyfiyyəti dəyişdirir, həm də toksidə təsir edə bilər".

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**

**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

**Sabunçu rayonu Şəhər Şossesi, Elşən Mehdiyev küçəsində 3,7 sot torpağın içində 4 otaqlı ev satılır. Ev Koroğlu metrosundan 5 dəqiqəlik yolda, Sabunçu körpüsünün yanında, Bakı Olimpiya stadionunun yaxınlığında yerləşir. Hər şəraiti (qaz-işıq), telefonu, interneti, xüsusi xətlə çəkilmiş daimi şirin suyu, həyətində 10 tonluq su hovuzu var. Evin ümumi sahəsi 120 kv.metrdir. Hamam-tualet evə bitişikdir. Evdən əlavə, həyətdə iki otaqlı yardımçı tikili var. Bir balaca əl gəzdirməklə tikilidən yaşayış məqsədilə də istifadə etmək mümkündür. Həyətdə həmçinin meyvə ağacları var. Qiyməti razılaşma ilə.**

**Telefon: 055 260 69 84.**

**Hyundai Sonata 2007, 10300 usd, probeq 98000 km originaldi, 2400 motor, 172 a.g. , qara, lyuk, kondisioner, ABS, merkezi qapanma, tekerleri tezedi, oz mashinimdi.Tecili satiram.Servis mashinidi. Mashinda problem yoxdu, udar gormeyib.**

**(050)-535-56-25 Eltay.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

# Ölmədən qəbirə "göndərilənlər"

## Mətbuatın "öldürdüyü" siyasətçilər, müğənnilər, aktrisalar....


Baloğlan Əşrəfov


Rikki Martin


Ağaxan Abdullayev


Barak Obama


Alla Puqaçova

## "Vallah ölməmişəm, necə sübut edim bunu?"

**Azərbaycan mətbuatının "cilvələrindən" biridir - məşhurları tez-tez "öldürüb-dirildirlər". "Filan müğənninin ölüm xəbəri yayıldı" başlığı nə qədər saytı "ölü" günlərdə dirildib, nə qədər satılmayan qəzeti zamanında oxucu əlinə göndərib, xəbəriniz varmı? Bəzi hallarda bilməyərəkdən, bir çox hallarda isə bilərəkdən yayılan bu yalançı ölüm xəbərləri mətbuatın "olmazsa olmaz"ı sayılır. Özü də təkcə yerli medianın yox. Dünya mediası, bir çox hallarda isə nüfuzlu, milyonlarla oxucu, tamaşaçı kütləsinə müraciət edən telekanallar, qəzetlər belə yalançı xəbərlər yayıb, daha sonra təkzib verərək, üzr istəyiblər.**

### "Ölməmişəm, amma bu xəbəri yayanı məhkəməyə verəcəm..."

Biz də bu yalançı ölüm xəbərlərinin arxasınca düşüb, iri bir "məzarlıq" kəşf etdik. "Yeni Müsavat" bu günə qədər Azərbaycanda, eləcə də dünyada ölüm xəbəri yayan məşhurlarla bağlı statistikanı və bu hekayələri təqdim edir.

Ən sonuncudan və ölkə miqyasında olandan başlayaq. İki gün öncə mediada məşhur Azərbaycan müğənnisi, əməkdar artist Baloğlan Əşrəfovun dünyasını dəyişməsi haqda yayılan xəbərlər təsdiqini tapmadı. Xatırladaq ki, bu xəbəri dosye.org saytı yaymışdı. Amma üzərindən bir neçə dəqiqə keçdikdən sonra adıçəkilən sayt yaydığı xəbəri təkzib edib. Əməkdar artist ANS PRESS-ə açıqlamasında dünyasını dəyişməsi barədə xəbəri həmkarı Yusif Mustafayevdən eşitdiyini bildirdi: "Maşallah, sağ-salamat evimdə oturmuşam, ölüm xəbərimi yayırlar. Mənə də Yusif Mustafayev dedi, xəbərim yox idi. Yusif zəng vurub hal-əhval tutduqdan sonra dedi ki, məndən sənin ölüm xəbərini soruşurdular. Belə olmaz axı! Başı batsın o xəbəri yazanın. Lənətə gəlsin onu. Bu insan kimdirsə düşmənçiliklə yayır bu xəbəri. Təxribatdır mənə qarşı. Başqa nə ola bilər ki? Mənim əzizlərim, doğmalarım eşidib narahat olurlar".

**B.Əşrəfov deyib ki, onunla bağlı bu xəbəri yayanlar məhkəmə qarşısında cavab verəcəklər:** "Hər kimdirsə, onu tapıb məhkəməyə verəcəm. Birinci hansı sayt, hansı jurnalist yazıb onu qanun yolu ilə cəzalandıracam. Belə etməsəm, sabah bir başqası da istədiyini yazar".

Bu ilin yanvarında **məşhur ulduz Rikki Martinin** nümayəndələri müğənninin ölüm xəbəri ilə bağlı şayiələri təkzib ediblər. Müğənninin yaxın adamları Rikki Martinin yaşadığını bildiriblər. "O, bu yalanın qurbanı olmuş məşhurların karvanına qoşulur. O əvvəlki kimi sağ və sağlamdır" deyə, müğənninin nümayəndələrindən biri deyib.

Qeyd edək ki, məşhur ulduz Rikki Martinin ölüm xəbəri ABŞ-ın ABC 10 kanalından verilib. Qısa bir zaman kəsiyində bütün sosial şəbəkələr Martinin ölüb-ölmədiyini müzakirə ediblər. Xəbərdə polis zabiti kameraların qarşısına çıxaraq Martinin Los Ancelesdə keçirdiyi qəza nəticəsində öldüyünü açıqlayır. Onun danışdığından dərhal sonra qəzanın görüntüləri efirə verilib.

### "Məni az öncə jurnalistlər "öldürdülər", utanın!"

Bu ilin martında **tanınmış muğam ustası Ağaxan Abdullayevin** dünyasını dəyişməsi barədə xəbər yayılıb. Xəbəri ilk olaraq interpress.az saytı yayıb. Lakin Ağaxan Abdullayevin oğlu məlumatı təkzib edib. O bildirib ki, atası sağdır və facebookda atası ilə fotosunu paylaşıb.

2013-cü ildə isə "Univision" mahnı müsabiqəsinin iştirakçısı olmuş Samir Mustafayevin ölüm xəbəri yalan çıxdı.

Ölüm xəbərini mətbuatdan oxuyan Samir Mustafayevin dostları şoka düşüblər. Əslində isə ölən şəxs müğənni olmayıb. Sadəcə adı və soyadı müğənni ilə eyni olub.

Gənc müğənni hadisə ilə bağlı şəxsi facebook səhifəsində bunları yazıb: "Bir portal məni az əvvəl öldürdü, utanın!"

Onu da qeyd edək ki, Bakıda qətlə yetirilmiş 26 yaşlı Tərtər sakini Samir Mustafayevin ümumiyyətlə şou-bizneslə əlaqəsi yoxdur.

Yerli mətbuatda uzun müddət xərçəng xəstəliyindən əziyyət çəkən əməkdar artist Xanım Qafarovanın ölüm xəbəri də bir neçə dəfə yayılıb. Artıq haqqın rəhmətinə qovuşan sənətçinin ölmədən əvvəl bir neçə dəfə belə ölüm xəbəri yayılıb.

2014-cü ilin mayında sosial şəbəkələrdə **xalq artisti Arif Quliyevin** ölüm xəbəri yayılıb. Artist jurnalistlərə açıqlamasında bildirib ki, hazırda Şamaxıdan kino çəkilişindən qayıdır: "Yəqin məni istədiklərindən belə şayiələr yayırlar".

### "Qoy canlı yayıma çıxım, görəcəklər ki, ölməmişəm..."

**2012-ci ilin sentyabrında sabiq səhiyyə naziri, hazırda həbsdə olan Əli İnsanovun dünyasını dəyişməsi barədə xəbər yayılıb. Keçmiş nazirin gecə saatlarında 13 saylı cəzaçəkmə müəssisəsində vəfat etdiyi deyilirdi. Eks-nazirin vəkili Toğrul Babayev açıqlamasında Əli İnsanovla bağlı bu xəbərin yalan olduğunu bildirmişdi. Vəkil:** "Mən də bunu mətbuatda oxudum. Yalan xəbərdir. Əli İnsanov hazırda həbsxanadadır, sağdır və deyilənlər yalnız şayiədən ibarətdir".

**Ölüm xəbəri yalan çıxan məşhurlardan biri də tanınmış şair, tərcüməçi Məmməd Aslandır. Xəbər yayılandan sonra jurnalistlərə açıqlama verən şair bu xəbərin onu istəməyən şəxslər tərəfindən bilərəkdən yayıldığını söyləyib. O qeyd edib ki, hazırda telekanallardan birində canlı yayıma hazırlaşır:** "Mən hazırda Sumqayıtdan Bakıya gəlirəm. Televiziyada canlı yayımda xalqımız görəcək ki, mən ölməmişəm, yaşayıram".

**Məmməd Aslan onu da bildirib ki, əvvəllər də onun ölümü barədə şayiə yayılmışdı:** "Amma görürsünüz ki, mən indi də sağam və öz işimlə məşğulam".

### "...adamı öldürən Allahdır"

15 dekabr 2014-ci ildə tənqidçi Cavanşir Yusiflinin ölüm xəbəri yalan çıxdı. Cavanşir Yusifli mediaya açıqlamasında qəzəbli danışıb və bildirib ki, bu, saytlardan birinin oyunur: "Adamı öldürən Allahdır. Əks təqdirdə, bu şərəfsizlərin əlində qalardıq".

Xatırladaq ki, tənqidçinin ölüm xəbərini yazıçı Əlabbas vermiş, C.Yusiflinin ürək çatışmazlığından öldüyünü bildirmişdi.

**SSRİ-nin birinci və sonuncu prezidenti, Azərbaycan xalqına qarşı erməni soyqırımının təşkilatçılığını etmiş Mixail Qorbaçovun da bir neçə dəfə ölüm xəbərləri yalan çıxıb. Qorboçov ölməsi barədə xəbərləri özü təkzib edərək yaşadığını və fəaliyyət göstərdiyini bildirib. Qorbaçov bu şayiələrə belə reaksiya verib:** "Mənim ölüm xəbərimlə yüksək qonorarlar almaq istəyənlər məyus olublar. Onlar bunu görməyəcəklər".

**Yalandan ölüm xəbəri yayılan məşhurlardan biri də Azərbaycanın tanınmış şoumeni və teleaparıcısı Kamran Həsənli olub. Bu məlumat şoumenin qonşusu olduğu iddia edilən şəxs tərəfindən mediaya ötürülmüşdü. Amma aparıcı bu xəbəri belə təkzib edib:** "Dünyamı dəyişməmişəm, yaxşıyam. Bilmirəm, mənim ölüm xəbərimi yaymaqla nə əldə etmək istəyirlər? Bayaqdan telefonum susmur. Bütün qohumlarım mənə görə narahatdır. Onu da deyim ki, nə vaxtsa rəhmətə gedəcəyik. Allahın işinə qarışa bilmərik. Ancaq hələ ki cavanam (gülür)".

**Müğənni Səyyad Əlizadənin** ölüm xəbəri isə 2012-ci ilin noyabrında yayılmışdı. O, açıqlamasında haqqında yayılan məlumatlardan xəbərdar olduğunu bildirib: "Qəzaya düşməmişəm. Belə xəbəri niyə yayıblar, bilmirəm".

### Barak Obamanı düz iki dəfə "öldürüblər"

Düşünməyin ki, belə yalançı xəbərlər ancaq şou-biznes nümayəndələrinin başına gəlir. ABŞ prezidenti Barak Obamanı düz iki dəfə "öldürüblər". 2011-ci ilin iyulunda naməlum şəxs ABŞ-ın "Fox Nevs" telekanalının siyasət şöbəsinin rəsmi twitter səhifəsini ələ keçirərək orada prezident Barak Obamanın öldürüldüyü barədə məlumat yerləşdirib. Gecə saatlarında telekanalın foxnevspolitics səhifəsi özünün 33 minlik oxucularına Barak Obanın öldürülməsinin təfərrüatlarını məlumat verməyə başlayıb.

"Barak Obama indicə aramızdan getdi. Prezident qətlə yetirilib. İyulun 4-ü üçün bu çox kədərli məlumatdır"-deyə yazılarda deyilib.

Daha sonra məlumatda deyilib ki, odlu silahdan yaralanan prezident çoxlu qan itirdiyinə görə vəfat edib. Guya naməlum şəxs "Ross" restoranında prezidentə iki dəfə silahdan atəş açıb.

Bundan sonra rəsmi twitter səhifəsini ələ keçirən naməlum şəxs Obamanın ailəsinə başsağlığı verib. Qeyd edək ki, dünyada minlərlə mikrobloq istifadəçisi bu provokasiyaya uyaraq məlumatı paylaşıblar.

8 noyabr 2014-cü ildə də ABŞ prezidentinin ölüm xəbəri yayılıb. Birləşmiş Ştatların CNN telekanalı efirdə səhvən Obamanın öldüyünü bildirib. Məlumata görə, "OutFront" televiziya proqramı "əl-Qaidə" terror qrupunun liderlərindən biri Üsəma bin Ladenin ölümü ilə bağlı xəbərdə "Osama" əvəzinə "Obama" yazıb. "Obamanı öldürən hərbçi əhalinin tənqidinə məruz qaldığını bildirib", - CNN efirdə qeyd edib.

2014-cü ilin sentyabrında ölüm xəbəri ilə dünyaya səs salan daha bir məşhur isə "Rembo" kimi tanıyıb sevdiyimiz məşhur aktyor Silvester Stallone olub. Qəzaya uyğun təqdim edilən fotonun ötən il baş verən və 53 yaşlı kişinin ölümü ilə nəticələnən qəzaya məxsus olduğu və Silvesterlə heç bir əlaqəsinin olmadığı təsdiqlənib. Silvesterin yaxınları iddia edir ki, insanlar bu xəbərin sayəsində pul yığmağa çalışıblar.

### Alla Puqaçovanın ölüm xəbəri - Azərbaycan mediasının üz qarası....

Rusiya estradasının primadonnası Alla Puqaçovanın ölüm xəbəri da Azərbaycan mediasının "üz qarası"dır. Yanlış tərcümə nəticəsində müğənninin verdiyi müsahibə onun ölüm xəbəri kimi sürətlə tirajlanıb. Bəzi Rusiya kütləvi informasiya vasitələri onun ailəsində faciəvi hadisənin baş verdiyini, ifaçının da az qalsın bu səbəbdən öləcəyi haqqında yazıblar. Belə ki, Alla Puqaçova xeyli müddət idi ki, jurnalistlərin qarşısına çıxmırdı. Sonuncu dəfə uzun fasilədən sonra mətbuat konfransı keçirən isə primadonna səhhətindən şikayətlənmişdi.

"Mən yuxumda gördüm ki, oğlum xəstələnib. Bir neçə gün sonra Harri həqiqətən xəstələndi. Bərk qorxdum. Amma həkimlər dedi ki, bu, adi soyuqdəymədir. Doğrudan da belə imiş və bir neçə günə oğlum tamamilə sağaldı", - deyən Alla Puqaçova oğlundan sonra özünün də səhhətinin pisləşdiyini deyib. "Bir an mənə elə gəldi ki, mən indi elə yerimdəcə öləcəm", - deyə primadonna etiraf edib.

Aydın olub ki, rus estradasının primadonnasına heç nə olmayıb. Sadəcə olaraq, o, gördüyü yuxuya görə çox narahat olub. Beləliklə, Harri sağalandan sonra Puqaçova da özünü yaxşı hiss edib. Yerli jurnalistlər isə "az qaldı ölüm" cümləsini "öldü" kimi tərcümə edərək, yanlışlığa yol veriblər.

2014-cü ilin noyabrında isə Ramzan Kadırovun İŞİD Tarxan Batiraşvalinin (Ömər əş Şişani) ölməsi ilə bağlı verdiyi xəbər yalan çıxıb. Bu haqda Gürcüstanın "Rezonansi" qəzeti yazıb. Pankisi dərəsinin ağsaqqalları qəzetə müsahibə veriblər. Ağsaqqallar Şurasının sədri Xaso Xanqoşvili bildirib ki, Tarxanın dosları onlara zəng edərək, hər şeyin yaxşı olduğunu bildiriblər. Şişani ölsəydi, ailə üzvlərinə mütləq xəbər verilərdi.

Pankisi dərəsi kənd sakini Ayuf Borçaşvili adında sakin də səhra komandirinin sağ olduğunu təsdiq edib.

İŞİD qüvvələrinə komandalıq edən Ömər əş Şişani təxəllüslü Gürcüstan vətəndaşının 2013-cü ildən bu yana çıxan beşinci ölüm xəbəridir.

### Virusun öldürdüyü məşhurlar

2014-cü ilin iyulunda facebook sosial şəbəkəsində Türkiyəli məşhur müğənni Tarkanın avtomobil qəzasında həlak olması ilə bağlı xəbər linkləri paylaşılıb. Az sonra məlum olub ki, bu, sadəcə, virusdur. Xəbər cəlbedici olduğundan minlərlə istifadəçinin hesabı bu virusa yoluxub. Bu tipli linkləri gördüyünüz zaman onları açmamağınız məsləhətdir.

Qeyd edək ki, bu, meqastarla bağlı ilk belə xəbər deyil. Belə ki, 2011-ci ildə də onun ölüm xəbəri yayılmışdı.

"Evdə Tək Başına" serialının uşaq ulduzu Mekaly Kalkin də tez-tez medianın "öldürdüyü" məşhurların sırasındadır. Onunla bağlı xəbərlər isə bir qayda olaraq "Mekalay Kalkin hədsiz dərəcədə dozada narkotik qəbul etdiyi üçün həyatını itirib" başlığı ilə verilir.

2009-cu ildə twitter hesabı xakerlər tərəfindən ələ keçirilən məşhur müğənni Britni Spirsin ölməsi xəbərini yayıblar. Yol qəzasında öldüyü deyilən ulduzun həyatda olduğu və xəbərin yalan olduğu da eyni sürətlə yayıb.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 135 (6163) 23 iyun 2015



## Pişik videoları xoşbəxt edir

Amerikanın İndiana Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, pişik videoları izləmək insanların enerjisini yüksəldir və pozitiv duyğuları artırır. Təxminən 7 min nəfər üzərində aparılan araşdırmaya görə, pişiklərlə bağlı videolar izləyən insanların daha rahat və xoşbəxt olduğu məlum olub. 2014-cü ildə video paylaşım saytı olan Youtubeyə yüklənən pişik videolarını izləyənlərin sayı 26 milyarddan çoxdur.



## Dünyanın sürəti azalır

Dünyanın öz oxu ətrafında fırlanma sürətinin azaldığını iddia edən astronomiya mütəxəssislərinin tələbi ilə 30 iyun gecəsi saat 23.59.59-da dünya saatına 1 saniyə əlavə olunacaq. 30 iyunu 1 iyula bağlayan gecə saatlar 23.59.59-da 2 dəfə çıqqıldayacaq. Beləcə dünya saatına 1 saniyə əlavə olunmuş olacaq. Mütəxəssislər hesab edir ki, bunun sayəsində dünyanın fırlanma sürətinin yaratdığı gün və mövsüm sürüşməsi səbəbindən əmələ gələn boşluq doldurulacaq.

Amma dünya saatlarına 1 saniyəlik əlavə İT mütəxəssislərini qorxuya salıb. Onlar hesab edir ki, bu, bir çox texniki sistemin çökməsinə səbəb ola bilər. Çünki saatların 23.59.59-u göstərdiyi zaman 2 dəfə çıqqıldamasını çox sayda kompüter səhv kimi qəbul edəcək ki, bu da bir çox sistemin dayanması ilə nəticələnə bilər.

# Baş nazirdən yoqa dərsi

**Hindistanın paytaxtı Yeni Dehlidə Dünya Yoqa Günü münasibətilə 35 min nəfərdən ibarət qrup yoqa ilə məşğul olub. Ölkənin baş naziri Modi yoqa ilə məşğul olan qrupa rəhbərlik edib. Paytaxtın Rajpah Meydanında təşkil edilən təxminən 30 dəqiqəlik tədbir zamanı xalqın bütün təbəqələrindən olan vətəndaşlar baş nazirin etdiyi hərəkətləri təkrarlayıblar. Tədbirdən bir neçə dəqiqə əvvəl Modi twitter sosial şəbəkəsindəki hesabında status yazıb: "Dünyanın dörd bir yanındakı insanların ilk Beynəlxalq Yoqa Gününü təbrik edirəm. Yoqanı gündəlik həyatımızın bir parçasına çevirmək üçün and içək".**



Bir müddət əvvəl etdiyi çıxışı zamanı 21 iyunu Beynəlxalq Yoqa Günü elan edən baş nazir Modi dünyanın dörd bir yanından ona göndərilən yoqa şəkillərini də sosial mediadakı hesabında paylaşıb. Səhər saat 7:00-da başlayan tədbirdə nazirlər, diplomatlar, dövlət qulluqçuları da iştirak ediblər. Şəhərin mərkəzində keçirilən tədbirə görə ciddi təhlükəsizlik tədbirləri görülüb.

# Düyünün faydaları və fəsadları

**Düyü minerallar baxımından çox da zəngin olmasa da, vitaminlər baxımından olduqca qiymətlidir. Karbohidrat dəyəri ən yüksək olan qidalardandır. Düyü yüksək qan təzyiqini aşağı salır, böyrək daşının əmələ gəlməsinin qarşısını alır, bağırsaq xərçənginə qarşı qoruyur, dərinin təmizlənməsinə səbəb olur, enerji verir və bədəni gücləndirir, zehni açır, ishalı kəsir, ürək və damarın sağlamlığını qoruyur, böyrəklər üçün çox xeyirlidir, xolesterolu salır, infarkt riskini azaldır.**

Bütün bunlarla bərabər onu da bildirək ki, alimlər düyü qəbulunun insanda şəkərli diabet xəstəliyi yaratmaq ehtimalının çox yüksək olduğunu açıqlayıb. Onların sözlərinə görə, düyüdən hazırlanmış yeməklə qanda şəkərin miqdarını kəskin şəkildə artırır. Bundan başqa, düyü mədəaltı vəzə də ziyan vurur və onun işində problemlər yaradır.

Bu nəticə 200 minədək insan arasında aparılmış araşdırmadan sonra məlum olub. Araşdırma göstərib ki, gündə 750 qram düyü qəbul edən şəxslərin diabet xəstəliyinə tutulma ehtimalı 17% artıqdır. Ağ düyünün çəhrayı düyü ilə əvəzlənməsi isə bu xəstəliyin yaranma ehtimalını 11% azaldır.





## Saçlı yatdı, keçəl oyandı

**Səhhəti ilə bağlı heç bir problemi olmayan qadın axşam normal halda yuxuya gedib. Səhər oyandığı zaman isə keçəl olduğunu görüb. "Mən əllərimdə saçımla oyandım" deyən qışqıraraq oyanıb.**

19 yaşlı Tiarne Manzies illərdir ki, saçını uzatmağa davam edir. Lakin indi çox sevdiyi saçları yoxdur. Keçəlləşdiyi üçün yerdə qalan saçlarını da kəsdirməli olub. Sidneydə yaşayan qadın bir neçə gün əvvəl saçının dibində yanma və qaşınma hiss etməyə başlayıb. Həkimə gedən qadına "trikotilomaniya" diaqnozu qoyulub. Bu xəstəlik əsəbi adamlarda öz saçını yolma və dartmaq kimi tanınır. Daha çox depressiyada olan adamlar bu halla üzləşirlər. Bu xəstəlikdən əziyyət çəkənlər yalnız saçlarını deyil, kirpiklərini, qaşlarını, hətta saqqallarını belə yolurlar. Tək çarəsi isə uzun müddət depressiya əleyhinə dərmanlar qəbul etməkdir.






**QOÇ** - İxtiyarınızda olan bu təqvimdə savab işlərinizin sayını artırmağa çalışın. Bu, sonrakı proseslərin həllində sizə kömək edəcək. Mövcud problemləri həlledilməz hesab etməyin.



**BUĞA** - Təxminən saat 14-ə qədər ümumi əhvalınız süst olduğundan bütün ciddi işlərinizi təxirə salın. Sonrakı müddətdə isə maliyyə uğurlarınız gözlənilir. Uzaq yola çıxmayın.



**ƏKİZLƏR** - Qarşılıqlı münasibətlərdə, eləcə də işgüzar sövdələşmələrdə ulduzlar sizə dəstək verəcək. Böyük uğurlarınızın ilkin qığılcımları məhz bu təqvimdən etibarən start götürəcək.



**XƏRÇƏNG** - Kifayət qədər mübahisəli gündür. İfadə etdiyiniz hər bir sözə ciddi yanaşın. Əks təqdirdə, münaqişəli situasiyalara cəlb olunacaqsınız. Falçı və cadugərlərdən uzaq olun.



**ŞİR** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu kimi sövdələşmə və müzakirələrdə iştirakınız yaxın gələcəyin planlarını həyata keçirməyə kömək edəcək. Şübhəli adamlardan uzaq olun.



**QIZ** - Qarşınızda duran bu təqvim sizə xoş ovqat bəxş edəcək. Hər hansı xoşagəlməzliyi ağlınıza gətirməyin. Ailə üzvlərinizə, sevdiyiniz adamlara qarşı mülayim olun. İnsanları dəyərləndirin.



**TƏRƏZİ** - Passiv gündür. Hansısa qeyri-adi hadisəni gözləməyə dəyməz. Yaxşı olar ki, üzərinizə düşən adi işlərin həlli ilə məşğul olasınız. Məxfi görüşləri və səfərləri təxirə salın.



**ƏQRƏB** - Hər mənada uğurlu təqvimdir. Öz gücünüzə etibar edin. Çünki Göy qübbəsi sizə elə bir enerji verəcək ki, bütün maneələri dəf edə biləcəksiniz. Axşamsa sürprizlər gözlənilir.



**OXATAN** - Sevgi məsələlərinə mülayim yanaşın. Bu, həm mövcud olan əsəbiliyinizi azaldar, həm də işlərinizin yaxşılaşmasına təkan verə bilər. Qohumluq münasibətlərinə fikir verin, ayırma ovqatından qaçın.



**OĞLAQ** - Günün birinci yarısında nəzərdə tutduğunuz perspektivlərin müəyyən hissəsini həll edə biləcəksiniz. Nahardan sonra isə yalnız neytral mövqe tutmalı, riskdən uzaq olmalısınız.



**SUTÖKƏN** - Bütün diqqətinizi səhhətlə bağlı problemlərin həllinə yönəldin. Bu amilə məsuliyyətlə yanaşsanız, ciddi çətinlikləriniz olmayacaq. Axşam saatlarında simsarlarınıza baş çəkin.



**BALIQLAR** - Əksər məsələlərdə gün sizin xeyrinizə işləyəcək. Şəxsi işlərinizdə müsbət rol oynaya biləcək insanlarla da rastlaşacaqsınız. Unutmayın ki, uğurlarınıza gedən yolun astanasındasınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 60 min dollar tapdı və ... qaytardı



**Ekvadorun Guayaquil şəhərində yaşayan Ulyam Alvarez adlı polis məmuru evinin qabağından içində 60 min dollar olan çanta tapıb. Pulların dəyişdirilmək üçün ölkəyə gətirilməsindən şübhələnən polis məmuru onları rəisinə təslim edib. Hazırda polis şöbəsində çalışan məmurlar çantanın kimə məxsus olduğunu tapmağa çalışırlar.**

Məlumat üçün bildirək ki, Ekvadorda polis rüşvətxorluğunun qarşısını almaq olduqca çətinləşib. 2012-ci ildə 5 polis məmuru narkotik tacirlərinin təyyarəsi endiyi zaman oradan 1 milyon 300 min dollar oğurlamağa çalışarkən həbs edilmişdilər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300